№ 72 (5833) 2023-cü il

Qiyməti 40 qəpik

ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 28 aprel 2023-cü il (cümə)

## Xilasedicilər Bakıda intihara cəhdin qarşısını aldı



**Dünən günorta saatlarında Bakı şəhərinin Xətai rayonu ərazisində 1 nəfər kişi işıqlandırma dirəyinə çıxaraq intihar etmək istəyini nümayiş etdirib.**

Ərazidən keçən vətəndaşlar dərhal Fövqəladə Hallar Nazirliyinin "112" qaynar telefon xəttinə məlumat veriblər. Qısa müddət sonra əraziyə Bakı Regional Mərkəzinin xilasedicilərı cəlb olunub.

*Xilasedicilər zəruri təhlükəsizlik tədbirləri görərməklə vətəndaşla psixoloji söhbət aparıb və onu intihara cəhd fikrindən daşındırıblar.*

## Tərtər sakini güllələnərək öldürülüb

**Aprelin 27-də saat 15 radələrində Tərtər rayonu Həsənqaya kəndi ərazisində üzərində xəsarət izləri olan meyit olması barədə polisə məlumat daxil olub.**

DİN-in mətbuat xidmətindən "Şərq"ə bildirilib ki, ilkin məlumata görə kəndin otlaq sahəsində 40-50 yaşlarında olan kişi ov tüfəngi ilə qətlə yetirilib.

Cinayət əməlini törətməkdə şübhəli bilinən şəxsin, yaxud şəxslərin saxlanılması istiqamətində tədbirlər görülür.







# İmzalar atıldı

### Azərbaycan və Türkiyə birgə pilotsuz uçuş aparatları istehsal edəcək

**Azərbaycan və Türkiyə birgə pilotsuz uçuş aparatları (PUA) istehsal edəcək.**

Bu barədə Türkiyənin "Baykar" şirkəti məlumat yayıb. Bildirilib ki, bununla bağlı Azərbaycan Müdafiə Nazirliyi ilə Türkiyənin "Baykar" şirkəti arasında niyyət protokolu imzalanıb. Sənədi Azərbaycan müdafiə nazirinin müavini Aqil Qurbanovla "Baykar" şirkətinin baş direktoru Haluk Bayraktar imzalayıblar.

Mərasimdə Azərbaycan müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələri Komandanı general-leytenant Ramiz Tahirov da iştirak edib.



## Türk idmanşılar coşqu ilə qarşılandı

### Cansu Bektaş: "Dəvət üçün cənab İlham Əliyevə təşəkkür edirəm"

**"Bizi buraya dəvət etdikləri üçün Prezident İlham Əliyev və xanımı Mehriban Əliyevaya təşəkkür edirəm".**

Bunu Ermənistanın paytaxtı İrəvandakı Avropa çempionatında qızıl medal qazanan türkiyəli ağırlıqqaldıran Cansu Bektaş Bakıda qarşılama zamanı deyib.

20 yaşlı idmançı gözəl qarşılanmaya görə xoşbəxt olduğunu bildirib: "Özümlə qürur duyuram. Türkiyə hər zaman dost və qardaşdır. Azərbaycan xalqını çox sevirəm.

(səh.2)

## Əfv Komissiyasının iclası keçirilib

### Müraciətlərin sayı 1700-ü ötüb



**Azərbaycan Prezidenti yanında Əfv Məsələləri Komissiyasının növbəti iclası keçirilib.**

İclasda 100-dən artıq müraciətə baxılıb.

*Qeyd edək ki, Komissiyada indiyədək ümumilikdə 1700-dən çox müraciətə baxılıb. Bununla da Əfv Komissiyasının iclasları yekunlaşır. Daha bir iclasın keçirilməsi istisna olunmur.*

# Sülh şansı var

### Fransa Azərbaycanın sülh müqaviləsinin imzalanması ilə bağlı təşəbbüsünü dəstəkləyir





**"Fransa bir dəfə də olsun Ermənistana çağırış etməyib". Bunu xarici işlər naziri Ceyhun Bayramov Fransanın Avropa və xarici işlər naziri Ketrin Kalonna ilə birgə mətbuat konfransında deyib.**

Nazir qeyd edib ki, Azərbaycan öz konstitusiyasına uyğun olaraq öz ərazisində addım atıb: "Bu addımından iki il yarım öncə hər kəsə problemin mahiyyətini deyib. Bu illər ərzində Fransa bir dəfə də olsun Ermənistana çağırış etməyib. Beynəlxalq Ədalət Məhkəməsinin qərarına gəldikdə isə bayaq dediyimiz o 3 istiqamət üzrə Laçın yolu hər zaman açıqdır".

(səh.3)



# Vaxtında doğru addım atıldı

**Laçın yolunda nəzarət-buraxılış məntəqəsinin qurulması Qarabağda yaşayan ermənilər üçün də lazımdır**

**"Hər bir müstəqil və suveren dövlət öz sərhədlərini qorumağa mükəlləfdir. Azərbaycan da beynəlxalq hüququn verdiyi bu imkanlardan istifadə edərək ərazisinə giriş-çıxışı tənzimləməli, təhlükə və təhdidlərdən mühafizə etməlidir".**

Bu sözləri "Şərq"ə açıqlamasında politoloq Əli Oruclu deyib. Analitik bildirib ki, Azərbaycanda bütün etniklərə eyni hüquq şamil olunur və müstəsna imtiyazlı etnik qrupun olması mümkün deyil...

(səh.5)




## 13 azərbaycanlı Gürcüstandan deportasiya edildi

**2023-cü ilin yanvar-mart aylarında Gürcüstandan 13 Azərbaycan vətəndaşı deportasiya edilib.**

Bu barədə Gürcüstan Daxili İşlər Nazirliyi məlumat yayıb.

Bildirilib ki, deportasiya edilən Azərbaycan vətəndaşlarından 7-si kişi, 6-sı qadındır. Onlardan 6 nəfəri (3 oğlan, 3 qız) 18 yaşına çatmayanlardır.

Cari ilin birinci rübündə Gürcüstandan ən çox deportasiya edilən əcnəbilər Azərbaycan vətəndaşları olublar.

## 2 nəfər vəfat edib

### 68 yeni yoluxma faktı qeydə alınıb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 68 yeni yoluxma faktı qeydə alınıb, 49 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən 2 nəfəri vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 831 267 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 820 811 nəfər müalicə olunaraq sağalıb, 10 235 nəfər vəfat edib, aktiv xəstə sayı 221 nəfərdir.

*Ölkədə son sutka ərzində 1 437, hazırkı dövrədək isə 7 587 257 test aparılıb.*

## Zaqatalada nəfəs yoluna alça düşən 3 yaşlı uşaq ölüb




**Zaqatalada bədbəxt hadisə olub.**

APA-nın Şimal-qərb bürosunun məlumatına görə, hadisə rayonun Əliabad qəsəbəsində baş verib. Qəsəbə sakini, 2020-ci il təvəllüdlü David Eləddin oğlu Başirovun yaşadığı ünvanda tənəffüs yolunda alça qalıb. Ağır vəziyyətdə xəstəxanaya aparılan 3 yaşlı D. Başirov yolda nəfəs çatışmazlığından dünyasını dəyişib.

Faktla bağlı araşdırma aparılır.



## Lentsov Qarabağdadır

**Sülhməramlıların yeni komandanı Kremlin tapşırıqlarını yerinə yetirməyə gəlib**

(səh.4)



## "Normallaşma üçün Fransa prezidenti dəyişməlidir"

Fransız nazirin səfəri Bakı və Paris arasında buzları əritməyəcək

(səh.4)



# Ermənistan öz üzərinə düşən öhdəliklərini yerinə yetirmir

## Prezident İlham Əliyev: “Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd-buraxılış məntəqəsinin qurulması Azərbaycanın suveren hüququdur”

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 27-də Fransa Respublikasının Avropa və xarici işlər naziri Ketrin Kolonnanı qəbul edib.**

Azərtac xəbər verir ki, Prezident İlham Əliyev Azərbaycan-Fransa əlaqələrinin perspektivləri ilə bağlı geniş fikir mübadiləsi aparılmasının zəruriliyini bildirərək Ketrin Kolonnanın ölkəmizə səfəri zamanı bir çox məsələlər ətrafında hərtərəfli müzakirələrin keçiriləcəyinə əminliyini ifadə etdi, bunun gələcək əməkdaşlıq üçün faydalı ola biləcəyini vurğuladı. Dövlətimizin başçısı əlaqələrin perspektivləri ilə bağlı fikir mübadiləsinin növbəti mərhələ üçün yol xəritəsinin tərtib edilməsi baxımından önəmli olduğunu bildirdi.

Azərbaycan Prezidenti ikitərəfli münasibətlərin gündəliyinin həmişə çox geniş olduğunu dedi, siyasi, iqtisadi, enerji, nəqliyyat sahələrində və digər sahələrdə əməkdaşlığın yaxşı tarixə malik olduğunu qeyd etdi.

Prezident İlham Əliyev Fransanın Avropa və xarici işlər nazirinin regiona səfər etdiyini vurğulayaraq bu çərçivədə eyni zamanda regional əməkdaşlıq və regional təhlükəsizlik məsələlərinin də müzakirə olunacağına ümidvarlığını bildirdi.

Dövlətimizin başçısı 44 günlük Vətən müharibəsi başa çatandan dərhal sonra məhz ölkəmizin Ermənistanla

**Azərbaycan Prezidenti İlham Əliyev Fransanın Avropa və xarici işlər nazirini qəbul edib**

qarşılıqlı şəkildə bir-birinin ərazi bütövlüyünü və suverenliyini tanımaqla sülh müqaviləsi imzalamaq təklifini irəli sürdüyünü və bunun üçün rəsmi İrəvana 5 prinsip təqdim etdiyini vurğuladı.

Prezident İlham Əliyev bildirdi ki, 2020-ci il noyabrın 10-da üçtərəfli Bəyanatın imzalanmasından və 44 günlük Vətən müharibəsinin başa çatmasından sonra Ermənistan öz üzərinə düşən öhdəliklərini yerinə yetirmir. Bu xüsusda dövlətimizin başçısı vurğuladı ki, Ermənistan Naxçıvanla dəhlizin yaradılmasına imkan vermir, öz qoşunlarını Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərindən çıxarmır və Laçın dəhlizindən sui-istifadə edərək Qarabağa silah-sursat və digər hərbi təyinatlı məhsulların daşınmasını həyata keçirirdi.

Prezident İlham Əliyev Azərbaycan-Ermənistan sərhədində, Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd-buraxılış məntəqəsinin qurulmasını ölkəmizin suveren hüququ və ərazi bütövlüyümüzün təmin olunmasının ifadəsi olduğunu qeyd etdi.

Ketrin Kolonna Fransa Prezidenti Emmanuel Makronun salamlarını dövlətimizin başçısına çatdırdı. Vurğuladı ki, Emmanuel Makron Azərbaycan Prezidenti ilə açıq və mütəmadi əlaqələrə çox önəm verir.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Emmanuel Makrona çatdırmağı xahiş etdi.

Ketrin Kolonna bildirdi ki, Fransa Azərbaycanda və ümumiyyətlə Cənubi Qafqaz regionunda sülhün, iqtisadi və sosial inkişafın mövcud olmasını istəyir və ölkəsinin məqsədi həmişə bundan ibarət olub. Qonaq Fransanın ikitərəfli əlaqələrə, eyni zamanda, Avropa İttifaqı çərçivəsində əlaqələrə böyük önəm verdiyini bildirərək bu istiqamətdə geniş potensialın mövcud olduğunu dedi.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.



# Urxan Ələkbərov "Şərəf" ordeni ilə təltif edilib

**Prezident İlham Əliyev U.K.Ələkbərovun “Şərəf” ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.**

Sərəncama əsasən, Azərbaycan Respublikasında elm və təhsilin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Urxan Kazım oğlu Ələkbərov ”Şərəf” ordeni ilə təltif edilib.

# Hulusi Akar: Ermənistan ona uzadılan sülh əlini tutmalıdır



**Ermənistanın və erməni diasporunun ”soyqırım” iddiaları Ermənistan və Türkiyə arasındakı normallaşma prosesinə təsir edən ən vacib əngəllərdən biridir.**

Trend-in məlumatına görə, bu barədə Türkiyə milli müdafiə naziri Hulusi Akar dünən Kayseridə ”Erməni məsələsi” mövzusunda keçirilən konfransda çıxışı zamanı deyib.

”Azərbaycan 30 illik erməni işğalından sonra torpaqlarını azad etdi. Ermənistan ona uzadılan sülh əlini tutmalıdır. Bu cür cəfəngiyyatlarla öz xalqının gələcəyinə mane olmaması ən səmimi diləyimizdir”,- deyə H.Akar bildirib.

# Türk idmanşılar coşqu ilə qarşılandı

## Cansu Bektaş: “Dəvət üçün cənab İlham Əliyevə təşəkkür edirəm”

**”Bizi buraya dəvət etdikləri üçün Prezident İlham Əliyev və xanımı Mehriban Əliyevaya təşəkkür edirəm”.**

**”Report” xəbər verir ki, bunu Ermənistanın paytaxtı İrəvandakı Avropa çempionatında qızıl medal qazanan türkiyəli ağırlıqqaldıran Cansu Bektaş Bakıda qarşılama zamanı deyib.**




20 yaşlı idmançı gözəl qarşılanmaya görə xoşbəxt olduğunu bildirib: ”Özümlə qürur duyuram. Türkiyə hər zaman dost və qardaşdır. Azərbaycan xalqını çox sevirəm. Federasiya prezidenti Talat Ünlüyə də təşəkkür edirəm. Onun sayəsində buraya gəlmişik. Mən medalımı Azərbaycana həsr etdim. Bunu mənim ağlıma gətirən də Talat Ünlü idi. Dostum Nazilə İsmayılovaya söz vermişdim. Sözümü tutduğum üçün də sevinirəm”.

Azərbaycan ağırlıqqaldıranı Nazilə İsmayılova isə öz növbəsində həmkarının Bakıya gəlməsinə görə çox sevindiyini söyləyib: ”Bunun üçün şad oldum. Cansu ilə yaxşı dostluğumuz var. Ondan çox razıyam. Həmişə var olsun, onu çox istəyirəm. Dostluğumuz Türkiyədəki İslam Həmrəylik Oyunlarında başlayıb”.

*Qeyd edək ki, Ermənistanın paytaxtı İrəvandakı ağırlıqqaldırma üzrə Avropa çempionatında qızıl medal qazanan türkiyəli atletlər Nuray Güngör, Cansu Bektaş, Yusuf Fehmi Genc, gümüş mükafatçı Qamze Altun və federasiya nümayəndələri Prezident İlham Əliyevin dəvəti ilə Bakıya gəliblər.*

# Orta Asiyada Pekinin ayaq səsləri eşidilir

## Çin Rusiyanın zəiflədiyi bütün regionlarda möhkəmlənir





**Çində Mərkəzi Asiya ölkələri və Çinin xarici işlər nazirlərinin görüşü keçirilib. Görüşdə xarici işlər nazirləri 2023-cü ilin mayında Sian şəhərində keçirilməsi planlaşdırılan ”Mərkəzi Asiya-Çin” dövlət başçılarının Birinci Sammitinə hazırlıq məsələlərini müzakirə ediblər.**

Eyni zamanda tərəflər regional və qlobal gündəlikdəki mühüm məsələləri, o cümlədən ŞƏT çərçivəsində əməkdaşlıq və ”Bir kəmər, bir yol” təşəbbüsünün birgə tikintisi ilə bağlı fikir mübadiləsi aparıblar. Digər xəbərə görə, Qırğızıstan Prezidenti Sadır Japarov may ayında Çinə dövlət səfəri edəcək. Səfər zamanı bir sıra görüşlər keçiriləcək və müzakirələr aparılacaq. Mərkəzi Asiya ölkələri ilə Çin arasında əməkdaşlıq əlaqələrinin inkişafı Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizinin davamı olan Orta Dəhliz ideyasını daha da aktuallaşdırır. Azərbaycan Prezidentinin irəli sürdüyü və artıq reallaşmaqda olan Orta Dəhliz ideyası təsadüfi xarakter daşımır. Azərbaycanın şimal və cənub qonşuları - Rusiya və İran sanksiya altında olduğundan Çin, Mərkəzi Asiya respublikaları və Avropa dövlətləri Azərbaycandan keçən Orta Dəhlizə daha çox maraq göstərirlər. Çünki Rusiya-Ukrayna müharibəsi Şimal dəhlizi ilə yükdaşımaları məhdudlaşdırıb. Odur ki, Orta Dəhliz məsafə və müddət baxımından böyük alternativ sayılır. Hesablamalar göstərir ki, Çindən Avropaya gedən yük qatarı Orta Dəhlizdən keçərsə, 12 gün ərzində 10 min kilometr deyil, 7 min kilometr məsafə qət edər.

**Politoloq Elçin Xalidbəyli ”Şərq”ə açıqlamasında bildirib ki, Çinin xarici siyasətində Rusiya faktoru həlledici amil deyil. Analitikin sözlərinə görə, rəsmi Pekinin atdığı addımlarda Rusiyanı açıq və radikal şəkildə dəstək niyyəti müşahidə olunmur**: ”Əksinə, rəsmi Pekin Ukrayna savaşından və Rusiyanın düşdüyü situasiyadan Çinin iqtisadi-ticari və geopolitik maraqları çərçivəsində istifadə etməyə çalışır. Çinin belə mövqe tutması Rusiyanı həm məyus, həm də ciddi şəkildə narahat edir. Məsələ ondadır ki, rəsmi Pekin də Rusiyanın zəifləməsində birbaşa maraqlıdır. Çünki rəsmi Pekin hələ keçmiş SSRİ-nin dağıldığı dövrlərdən Rusiyanın Çin ilə sərhəd olan ərazilərinə göz dikib. Nə vaxtsa, Rusiya parçalanıb dağılarsa, Çin Rusiya ərazilərindən böyük bir hissəyə iddialıdır. Hətta Çin dövlət televiziyası belə, gələcəkdə Rusiyanın necə bölüşdürüləcəyi ilə bağlı materiallar yayımlamaqdadır. Digər tərəfdən, Çin Rusiyanın zəiflədiyi bütün regionlarda möhkəmlənmək niyyətini də qətiyyən gizlətmir. Son vaxtlara qədər rəsmi Pekin bəzi regionlarda Rusiya ilə paralel şəkildə yerləşməyə üstünlük verirdi. Ancaq Ukrayna savaşının yaratdığı yeni situasiyada Çin Orta Asiya da daxil olmaqla, bəzi önəmli regionlarda ümumiyyətlə, Rusiyanı əvəzləmək missiyasını öz üzərinə götürməyə çalışır. Hətta Çin ABŞ və Qərbə qarşı olan dövlətlərə liderlik missiyasını da ələ keçirmək üzrədir. Halbuki son vaxtlara qədər bu liderlik Rusiyaya məxsus idi. İndi hətta Rusiyanın özü Çindən asılı vəziyyətə düşməyə başlayıb”.

**E.Xalidbəyli diqqətə çatdırıb ki, bu prosesdə Orta Asiya uğrunda mübarizə xüsusi önəm daşıyır:** ”Tarixən bu region həmişə Rusiyanın təsir dairəsinə daxil olub. Ancaq son dövrlərdə, xüsusilə də, Ukrayna savaşının başlanmasından sonra Rusiya Orta Asiyaya nəzarəti itirməyə başlayıb. Əslində rəsmi Pekin buna qədər də, Orta Asiya uğrunda Rusiya ilə rəqabət aparırdı. Rəsmi Pekin Çinlə sərhəd bölgə olan Orta Asiya ölkələrinin iqtisadiyyatına sərmayə yatırmaqla bu regionda kifayət qədər möhkəmlənə bilib. Bu regionda Çinin əsas rəqibi yalnız Rusiya idi.

Ancaq Ukrayna savaşından sonra rəqiblərin sayı artmağa başlayıb. Belə ki, Ukrayna savaşında zəifləyən Rusiyanın Orta Asiyaya nəzarəti də itirmək üzrə olması ABŞ və Qərbin bu regiona marağını artırıb. ABŞ və Qərb Orta Asiyada Çinin Rusiyanı əvəz etməsinə imkan vermək niyyətində deyil. Çünki Azərbaycanın 44 günlük savaşda qələbəsindən sonra Orta Asiyanın da statusu və əhəmiyyəti dəyişməyə başlayıb. Yəni hazırda ABŞ və Qərb Avropanı Asiya ilə birləşdirəcək və böyük mənfəət vəd edən strateji iqtisadi-ticari marşruta, logistika mexanizmlərinə nəzarət uğrunda mübarizəyə girişib. Bu mübarizədə ABŞ və Qərbin əsas rəqibi isə məhz Orta Asiya iqtisadiyyatına yerləşməyə imkan tapmış Çin hesab olunur”.

Analitikin fikrincə, böyük ehtimalla ABŞ və Qərbin Çinlə Orta Asiya uğrunda mübarizəsi Cənubi Qafqaza doğru inkişaf edəcək: ”Çünki yaxın gələcəkdə, Rusiyanın sıxışdırılıb çıxarılmasından sonra ABŞ və Qərblə Çin arasında əsas ”nifaq alması” məhz Cənubi Qafqaz olacaq. Hər halda Cənubi Qafqaz Avropa və Asiya arasında açılacaq strateji dəhlizin əsas qovşağıdır. Yəni bütün bunları nəzərə aldıqda, hazırda Orta Asiya ətrafında baş verənləri müəyyən mənada, Cənubi Qafqaz uğrunda mübarizənin tərkib hissəsi də hesab etmək olar”.

**İsmayıl Qocayev**

# "Akkuyu" rəsmi olaraq AES statusu alıb

## Putin: “Akkuyu” AES Türkiyə-Rusiya tarixində ən böyük ortaq layihədir

**“Akkuyu” Atom Elektrik Stansiyası rəsmi olaraq AES statusu alıb.**

**Rəsmi mərasimdə videobağlantı şəklində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərsoğan və Rusiya lideri Vladimir Putin də iştirak edib.**



Rəsmi tədbir çərçivəsində ”Akkuyu”da Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin bayrağı qaldırılıb.

“Akkuyu” Atom Elektrik Stansiyası (AES) Türkiyə-Rusiya tarixində ən böyük ortaq layihədir”.

Bu barədə Rusiya Prezidenti Vladimir Putin ”Akkuyu” Atom Elektrik Stansiyasının birinci reaktoruna nüvə yanacağının gətirilməsinə dair rəsmi mərasimində çıxışı zamanı bildirib.

O qeyd edib ki, ”Akkuyu” qarşılıqlı iqtisadi maraq doğuran layihədir, iki ölkə energetika sahəsində əməkdaşlığı genişləndirir. Putinin sözlərinə görə, Rusiya Türkiyə ərazisi vasitəsilə öz təbii qazını üçüncü ölkələrə tədarük etmək niyyətindədir.

Putinin sözlərinə görə, ”Akkuyu” dünyanın ən qabaqcıl təhlükəsizlik sistemi ilə təmin edilib.

”Bu sadəcə AES inşası deyil, həm də yeni sahənin, iqtisadi sektorunun təməlinin qoyulmasıdır. Türkiyə ”Akkuyu”nun işə salınması ilə dünyanın ən ucuz enerjisini əldə etmiş olacaq”, - o deyib.

Putin, həmçinin əlavə edib ki, Rusiya Türkiyəyə infrastruktur inşaat materialları ixrac etməyi planlaşdırır.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan rəsmi mərasimdə çıxışı zamanı bildirib ki, “Akkuyu” Atom Elektrik Stansiyası 20 milyard dollarlıq bir yatırımdır. (apa)

O qeyd edib ki, ”Akkuyu”nun tam işə salınması Türkiyəyə təbii qaz idxalını illik 1,5 milyard dollara qədər azaltmağa imkan verəcək. Ərdoğanın sözlərinə görə, bu iki ölkə arasında həyata keçirilən ən böyük layihədir.

Türkiyə lideri, ən qısa zamanda, ikinci və üçüncü AES-lərin də inşasının başlanılacağını vurğulayıb.

# "Ölkəmiz çox ağır vəziyyətdədir"

## Ermənistan Təhlükəsizlik Şurasının katibi etiraf edib

**“Ermənistan çox ağır vəziyyətdədir, hazırda bizi qorumalı olan təhlükəsizlik mexanizmləri işləmir”.**



”Report” ”News.am”a istinadən xəbər verir ki, bunu ölkənin Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan deyib.

O bildirib ki, İrəvan Qərbə meyilli olmaqda ittiham edilir: ”Lakin biz Hindistanla da intensiv əməkdaşlıq edirik”.

A.Qriqoryan söyləyib ki, Rusiya siyasi səviyyədə Ermənistanın təhlükəsizlik problemlərini həll edə bilməyəcəyini bəyan etmir.

# Sülh şansı var

## Fransa Azərbaycanın sülh müqaviləsinin imzalanması ilə bağlı təşəbbüsünü dəstəkləyir

**“Fransa bir dəfə də olsun Ermənistana çağırış etməyib”. Bunu xarici işlər naziri Ceyhun Bayramov Fransanın Avropa və xarici işlər naziri Ketrin Kalonna ilə birgə mətbuat konfransında deyib.**

Nazir qeyd edib ki, Azərbaycan öz konstitusiyasına uyğun olaraq öz ərazisində addım atıb: ”Bu addımından iki il yarım öncə hər kəsə problemin mahiyyətini deyib. Bu illər ərzində Fransa bir dəfə də olsun Ermənistana çağırış etməyib. Beynəlxalq Ədalət Məhkəməsinin qərarına gəldikdə isə bayaq dediyimiz o 3 istiqamət üzrə Laçın yolu hər zaman açıqdır”.

**“Azərbaycan heç vaxt Fransa ilə münasibətlərin gərginləşməsinin səbəbkarı olmayıb”**

Ceyhun Bayramov bildirib ki, Azərbaycan heç vaxt Fransa ilə münasibətlərin gərginləşməsinin səbəbkarı olmayıb, hər zaman bu münasibətlərin müsbət müstəvidə inkişafının tərəfdarı olub, buna səylər göstərib: ”Münasibətlərdə fikir ayrılıqları olan zamanda belə Azərbaycan təmaslardan çəkinməyib, təmaslar intensiv formada davam edib. Biz bu cür təmaslara hər zaman açığıq. Bu müstəvidə xanım Ketrin Kalonnanın ölkəmizə səfərini müsbət qiymətləndiririk”. Nazir deyib ki, bizim ölkələrimiz arasında parlamentlərarası əlaqələr də mövcuddur: ”Parlamentlərarası dostluq qrupları fəaliyyət göstərib, qarşılıqlı investisiyaların həcmi çox milyardlıqdır. Eyni zamanda biz onu da qeyd etməliyik ki, 44 günlük Vətən müharibəsi və ondan sonrakı dövrdə, yəni Azərbaycan Respublikası öz Konstitusiyasına və BMT-nin Nizamnaməsinə və legitim hüquqlarına əsasən, öz torpaqlarına azad etdikdən sonra Ermənistan-Azərbaycan arasında postmünaqişə dövründə, yumşaq sözlə desək, ölkələrimiz arasında fikir ayrılıqları mövcud olub. Bu son iki il yarımlıq müddəti siyasi gündəlik baxımından dəyərləndirsək, yeni siyasi təmasların yeni layihələrin inkişafına deyil, hansısa qarşılıqlı diplomatik debatlar, fikir ayrılıqlarının nümayişi fonunda keçib”. C.Bayramov qeyd edib ki, Azərbaycan-Fransa diplomatik münasibətləri uzun illər boyu dinamik formada inkişaf edən və çoxşaxəli sahələri əhatə edən uğurlu bir əməkdaşlıqdır: ”Biz bu müddət ərzində bir sıra strateji sahələrdə böyük birgə layihələr




həyata keçirmişik. Bunlar içərisində enerji, neft-qaz layihələri, həmçinin ölkəmizi dünya bazarları ilə birləşdirən infrastruktur layihələri, hava daşımaları, kosmik sahələrdə əməkdaşlığımız olub. Ümumilikdə sosial, iqtisadi, humanitar, texnologiya, mədəniyyət və digər sahələrdə qarşılıqlı əməkdaşlığımız olub”.

**“Yaxın zamanda Ermənistanın danışıqlar masasına qayıtması gözlənilir”**

XİN rəhbəri bildirib ki, yaxın zamanda Ermənistanın danışıqlar masasına qayıtması gözlənilir: ”Ermənistan fiziki görüşlər keçirməməklə yanaşı, şərtlərin verilməsi prosesində də ciddi ləngimələrə səbəb olur. Son dəfə Ermənistandan biz sülh müqaviləsi ilə bağlı şərtləri almaq üçün 6 həftə vaxtımız getdi. Bu da prosesin gedişatı ilə üst-üstə düşən hal deyil. Delimitasiya prosesi üçün son bir neçə ay ərzində bəzi bəlli işlər getsə də, Ermənistan daha intensiv və dinamik hərəkət edə bilərdi. Azərbaycan dövləti tərəfindən yerli ermənilərin reinteqrasiyası ilə bağlı müzakirələrin aparılması üçün Azərbaycan tərəfindən nümayəndənin təyin edilməsi, növbəti mərhələ danışıqların Bakıda keçirilməsi üçün iki dəfə çağırışın edilməsini biz pozitiv olaraq görürük”.

**“Ermənistan Laçın yolunda paralel nəzarət təklifindən imtina edib”**

Nazir deyib ki, Ermənistan Laçın yolunda paralel nəzarət təklifindən imtina edib: ”Azərbaycanın xəbərdarlıqlarına baxmadan Ermənistan tərəfi imza atılan sənədlərə riayət etməyib. Azərbaycan tərəfinin çoxsaylı təklifləri cənab Prezident tərəfindən edilməkdədir. Hansı ki bunlardan biri də Laçın yolu üzərində şəffaf rejimin təmin edilməsidir. Amma Ermənistan tərəfi paralel nəzarət təklifindən imtina edib. Belə olan təqdirdə, Laçın yolu üzərində şəffaf nəzarətin təmin edilməsi məqsədilə 23 apreldə Azərbaycan tərəfi nəzarət-buraxılış funksiyasını yerinə yetirmək üçün müvafiq addımlar atıb. Bəyanata əsasən, Laçın yolu 3 istiqamət üzrə istifadə edilə bilər: vətəndaşlar, yüklər və nəqliyyat vasitələri üçün”.

**“Ermənistan yenidən prosesə döndüyünü bəyan edib”**

Ceyhun Bayramov vurğulayıb ki, Azərbaycan sülh prosesinə və sazişinə inanmasaydı, bunun təşəbbüskarı olmazdı: ”Bu çağırış 2020-ci ilin yanvarında Cənab Prezident tərəfindən edilib. Sülh sazişi istiqamətində növbəti addımlar da məhz bizim tərəfimizdən edilib. Biz təbii ki, bütün vasitəçilərə öz təşəkkürümüzü bildiririk. Ən azından, bunlardan sonra Ermənistan yenidən prosesə döndüyünü bəyan edib. Növbəti danışıqların keçirilməsi prosesin çox önəmli növbəti mərhələsi və addımıdır. Biz bu prosesi dəstəkləyirik, alqışlayırıq. Azərbaycan sülh prosesində iştirak edəcək, irəli aparılması üçün əlindən gələni etməyə hazırdır”.

**“Azərbaycan və Fransanın ikitərəfli əlaqələrinin güclü bazası var”**

Fransanın Avropa və xarici işlər naziri Ketrin Kalonna deyib ki, rəsmi Paris sülhün olmasını istəyir: ”Bizim ikitərəfli əlaqələrimizin güclü bazası var. Müxtəlif sahələrdə mədəniyyət, təhsil, iqtisadiyyat, kosmologiya sahəsində əməkdaşlığımız var”. Ketrin Kalonna əməkdaşlığı daha da inkişaf etdirmək üçün azərbaycanlı həmkarını Parisdə gözlədiyini vurğulayıb.

**“Bu gün Azərbaycanla Ermənistan arasında sülh üçün şans var”**

Fransalı nazir deyib ki, bu gün Azərbaycan və Ermənistan arasında sülh üçün şans var. O, Azərbaycanın Sovet İttifaqının süqutundan sonra ağır dönəm keçirdiyini xatırladıb: ”Azərbaycan müharibədə çoxsaylı qurbanlar verib, nə qədər insan öz yurdlarından qaçqın və məcburi köçkün olub. Biz sizin əzablarınıza laqeyd deyilik. Biz minalardan təmizləməyə dəstək veririk, bu məsələnin həlli insanların həyatını xilas etmək deməkdir. Azərbaycana minalardan təmizləmə ilə bağlı yardım etmişik. İtkin düşənlərlə bağlı demək istəyirəm ki, onların ailələri əzab çəkib. Minaların qurbanları olub”. Kolonna Azərbaycanın sülh təşəbbüsü ilə çıxış etdiyini xatırladıb və əlavə edib ki, Fransa bunu alqışlayıb: ”Biz beynəlxalq ictimaiyyətə çağırış etmişik ki, toqquşmalar olmasın. Münaqişə dinc yolla həll olmalıdır və bu davamlı sabit sülhə aparan yoldur. Bu xalqların bu gün sülh üçün şansı var. Toqquşmaların qarşısının alınması vacibdir. Azərbaycan sülh müqaviləsinin imzalanması üçün təşəbbüs göstərdi və Fransa bunu alqışladı. Bu, eyni zamanda çətin yoldur, sülhə gedən yol səbr, təmkin və birgə iş və planlar tələb edir. Praqa görüşündə razılaşdırılma oldu, təmaslar oldu və bu, vacib idi. Azərbaycan və Ermənistan bir-birinin ərazi bütövlüyünü və suverenliyini tanımalıdır və hər şeyin əsasında bu dayanır. Biz geri qayıtmamalı, irəliləməliyik. Bu çətin yolla irəliləmək lazımdır ki, sülh sazişi imzalansın. Fransa vasitəçilik səylərini alqışlayır və Fransa bunu təşviq edəcək. Sülhə doğru irəliləmə o deməkdir ki, gücdən istifadə olunmasın, ritorikadan əl çəkilsin”.

**“Sülh müqaviləsində itkin düşən şəxslər, qaçqınların geri qayıtması kimi məsələlərə cavablar tapılacaq”**

Ketrin Kalonna deyib ki, regionda jestlər göstərmək lazımdır, bu jestlər sülh prosesini qidalandıracaq. O, Laçın yolu ilə bağlı ölkəsinin mövqeyinin Beynəlxalq Ədalət Məhkəməsinin qərarına əsaslandığını qeyd edərək, Azərbaycan və Fransanın beynəlxalq hüquqa hörmət etdiyini vurğulayıb: ”Təmaslarımızda da bildirmişik ki, sülh danışıqlarını ilhamlandırmaq, təşviq etmək istəyirik. Biz istəmirik ki, tərəflər, xalqlar əzab çəksin. Sülh prosesi qətiyyətə, iradəyə əsaslanmalıdır. İtkin düşən şəxslər, qaçqınların geri qayıtması kimi məsələlərə cavablar sülh müqaviləsində tapılacaq”.

**İsmayıl**

# 6 yaşı tamam olmamış uşaqların 1-ci sinifə qəbulu mümkün deyil

## Bunu nə sistem, nə də mövcud qanunvericilik qəbul edir

**”6 yaşı tamam olmamış uşaqlar birinci sinfə qəbul prosesində iştirak edə bilməz”.**

**Bu sözləri ”Təhsil masa”sında Təhsil Nazirliyinin Ümumi təhsilin təşkili və idarə olunması şöbəsinin müdir müavini Orxan Abbasov deyib.**



”Təhsil haqqında” qanunda edilən müvafiq dəyişikliyi xatırladan O. Abbasovun sözlərinə görə, bu dəyişiklik kiçik bir anlaşılmazlığın qarşısını alıb: ”Artıq bir neçə ildir ki, birinci sinfə məhz il ərzində 6 yaşı tamam olmuş uşaqlar gedə bilir. Bu da o deməkdir ki, 2017-ci ildə dünyaya gəlmiş uşaqlar bu il birinci sinfə gedəcəklər. Bu yaşdan kiçik olan uşaqların birinci sinfə getməsi qanunaziddir. 7-8 yaşından yuxarı uşaqlar da olur ki, onlar müxtəlif səbəblərdən təhsil almağa gecikirlər. Həmin uşaqlar fərdi təhsilə cəlb olunurlar”.

O qeyd edib ki, 5 yaşında uşaqların hər hansı bir istedadı olsa belə, birinci sinfə gedə bilməz: ”5 yaşında uşaqlar yalnız məktəbəhazırlıq qruplarına qəbul oluna bilərlər, bu proses isə cari ilin avqust ayında başlayacaq. Mayın 11-dən isə 2023-2024-cü tədris ili üzrə ümumi təhsil müəssisələrinin birinci siniflərinə şagird qəbuluna start veriləcək”.

Şöbə müdirinin müavini onu da qeyd edib ki, övladı məktəbəhazırlıq qrupuna gedənlər üçün sonradan məktəbi dəyişmək riskli ola bilər. Yəni məktəb dəyişimində müəyyən risk var: ”Təbii ki, bu, valideynlərin şəxsi seçimidir. Bütövlükdə heç bir halda məktəbyaşlı uşaq təhsildən kənarda qala bilməz. Çünki ölkədə ümumi orta təhsil icbaridir”. Nazirlik rəsmisinin sözlərinə görə, bu il birinci sinfə qəbul prosesində bir sıra yeniliklər edilib: ”Belə ki, əvvəl vətəndaş qeydiyyatdan keçdiyi zaman övladlarının məlumatlarını bir-bir sistemə qeyd edirdi. Aidiyyəti qurumlarla əməkdaşlıq çərçivəsində bu məlumatlar sistemə avtomatik olaraq inteqrasiya edilir. Yəni vətəndaş sistemdə qeydiyyatdan keçdiyi zaman onun məktəbyaşlı övladının məlumatları birbaşa sistemdə görünür”.

**Təhsil eksperti Elçin Əfəndi isə ”Şərq”ə açıqlamasında deyib ki, yalnız xüsusi istedadlı uşaqların imtahan verərək yaşından əvvəl birinci sinfə qəbuluna icazə var:** ”Azərbaycanda ümumtəhsil müəssisələrinin I sinfinə fiziki və əqli cəhətdən normal inkişaf etmiş, həmin ilin sentyabr ayının 15-nə kimi 6 yaşı tamam olmuş uşaqlar qəbul edilirlər. Qanunvericiliyin tələbinə görə, 5-6 yaş aralığında olan uşaqlar yalnız məktəbəqədər hazırlıq qruplarına gedə bilərlər. 6 yaşı tamam olmamış şəxslərin 1-ci sinfə qəbulu mümkün deyil. Bunu nə sistem, nə də mövcud qanunvericilik qəbul edir. 6 yaşı 16 sentyabr-31 dekabr müddətində tamam olan uşaqların I sinfə qəbulu isə ”Xüsusi istedada malik uşaqların vaxtından əvvəl I sinfə qəbulu Qaydaları”na əsasən aparılır. Bu qaydalara əsasən, 6 yaşı sentyabrın 16-dan dekabrın 31-dək tamam olan, xüsusi istedadı ilə fərqlənən uşaqların valideynlərinin (qanuni nümayəndələrinin) I sinfə qəbulu məsələsinə bilavasitə onların valideynlərinin və ya digər qanuni nümayəndələrinin müraciəti əsasında baxılır. Uşaqların vaxtından əvvəl I sinfə qəbulu ilə bağlı müsahibə yüksəkixtisaslı və təcrübəli mütəxəssislərin, yəni ibtidai sinif müəllimi, həkim, psixoloq, metodistlərdən ibarət komissiya tərəfindən uşağın tədris alacağı dildə aparılır. Zehni keyfiyyətlərə yanaşı, uşağın psixoloji dayanıqlılığı, fiziki durumunu və səhhətinin vəziyyətini qiymətləndirib onun vaxtından əvvəl birinci sinifə qəbulu barədə qərar verilir”.

*Qeyd edək ki, əvvəllər orta ümumtəhsil məktəblərində məktəbəhazırlıq qrupları olmadığından 6 yaşı tamam olmamış uşaqların I sinfə vaxtından əvvəl qəbulu üçün valideynlər xüsusi qaydada müraciət edirdilər. Bu müraciət əsasında uşaqlar xüsusi komissiyaların razılığı əsasında I sinfə cəlb edilirdilər.*

**Şəymən**

# 15.2 milyard manat sosial sferaya yönəldiləcək

## Bu, ümumi büdcə xərclərinin 45.6 faizi deməkdir

**İqtisadi Şuranın sonuncu iclasında 2023-cü ilin dövlət büdcəsinə yenidən baxılması (dürüstləşmə) məsələsi müzakirə olunub.**

Bununla bağlı Prezident İlham Əliyev hökumətə tapşırıqlar verib. Bu ilin birinci rübü üzrə dövlət büdcəsi gəlirlərinin proqnozdan artıq icra olunması 2023-cü ilin dövlət büdcəsinə yendən baxılmasına zəmin yaradıb.

Millət vəkili Vüqar Bayramov deyib ki, 2023-cü il dövlət büdcəsinin gəlirləri 30.7 milyard, xərcləri 33.3 milyard manatdır. Deputatın sözlərinə görə, 2023-cü ildə dövlət büdcəsindən əməkhaqqı və pensiya ödənişləri daxil olmaqla 15.2 milyard manat sosial sferaya yönəldiləcək: ”Bu, ümumi büdcə xərclərinin 45.6 faizi deməkdir. Büdcəyə ediləcək dəyişikliklərdən sonra büdcənin gəlir və xərclərində artımların olacağı gözlənilir. Həlelik dürüstləşmə ilə bağlı konkret layihə icti-



maiyyətə təqdim edilmədiyi üçün hansı istiqamətlər üzrə daha çox vəsaitin ayrılacağını indidən söyləmək mümkün deyil. Ancaq milli prioritetlərin nəzərə alınacağı istisnasızdır. Sosial təminatın gücləndirilməsi, işğaldan azad olunmuş ərazilərə ”Böyük Qayıdış”ın sürətləndirilməsi, dayanıqlı, artan rəqabətqabiliyyətli iqtisadiyyatın müdafiəsi prioritetliyini qoruyub saxlamaqdadır”.

**İsmayıl**

# Vaxtında doğru addım atıldı

## Laçın yolunda nəzarət-buraxılış məntəqəsinin qurulması Qarabağda yaşayan ermənilər üçün də lazımdır

**“Hər bir müstəqil və suveren dövlət öz sərhədlərini qorumağa mükəlləfdir. Azərbaycan da beynəlxalq hüququn verdiyi bu imkanlardan istifadə edərək ərazisinə girişçıxışı tənzimləməli, təhlükə və təhdidlərdən mühafizə etməlidir”.**



*Bu sözləri ”Şərq”ə açıqlamasında politoloq Əli Oruclu deyib. Analitik bildirib ki, Azərbaycanda bütün etniklərə eyni hüquq şamil olunur və müstəsna imtiyazlı etnik qrupun olması mümkün deyil:* ”Rəsmi Bakı sərhədlərinin mühafizəsini öz üzərinə götürməliydi və götürdü. Laçın yolunda nəzarət-buraxılış məntəqəsinin qurulması Azərbaycanın təhlükəsizliyi və xarici əks-təsirlərdən qorunması üçün vacib idi. Çünki həmin yola nəzarətin olmaması ermənilərin əl-qolunu açırdı və onlar da bu fürsətdən sui-istifadə edərək ölkəmizə silah-sursat, partlayıcı qurğular, canlı qüvvə daşıyırdılar. Təəssüf ki, bütün bunlar ərazilərimizdə yerləşdirilən Rusiya sülhməramlı kontingentinin himayəsi altında həyata keçirilirdi. Qarabağ iqtisadi rayonunda yaşayan və hələ də separatizm meyillərindən əl çəkməyən ermənilərin təxribatlarına rəvac verilirdi”.

> Çünki İrəvandan gələn emissarlar və təhlükəli ünsürlər onların Azərbaycan cəmiyyəti ilə inteqrasiyasının qarşısını alırdı

Ə.Oruclu vurğulayıb ki, 10 noyabr bəyanatının şərtlərinə görə, Qarabağda yerləşən erməni hərbi birləşmələri çıxarılmalı, həmçinin Azərbaycanın Qərb rayonlarını Naxçıvanla birləşdirən nəqliyyat dəhlizi açılmalı idi: ”Azərbaycan üzərinə götürdüyü şərtləri tam və vaxtında icra etdi. Bunun əvəzində ancaq təxribatlar gördük. Nəticədə vətəndaşlarımız həlak olur, sağlamlıqlarını itirir, infrastruktura ziyan dəyir, təbii sərvətlərimiz talan edilir, yenidənqurma-tikinti işlərinə maneçilik törədilir, məcburi köçkünlərin öz yurdlarına qayıtmaları prosesi ləngiyir. O baxımdan Laçın-Xankəndi yolunun başlanğıcında nəzarət-keçid məntəqəsinin qurulması tam doğru addımdır. Bununla özümüzü xarici təhlükələrdən və təxribatlardan tam qorumuş olacağıq. Əslində nəzarət-buraxılış məntəqəsinin qurulması Qarabağ iqtisadi rayonunda yaşayan ermənilər üçün də lazımdır. Çünki İrəvandan gələn emissarlar və təhlükəli ünsürlər onların Azərbaycan cəmiyyəti ilə inteqrasiyasının qarşısını alırdı. Normal yaşamalarına problemlər yaradırdı. Rusiya sülhməramlılarının öhdəliklərini yerinə yetirməməsi, ermənilərə havadarlıq etməsi rəsmi Bakını məcbur etdi ki, bu missiyanı da öz üzərinə götürsün”.

Ekspert hesab edir ki, Bakı qətiyyətli addımlar atmasa, öz təsirli mexanizmlərini işə salmasa, erməni-rus işbirliyi Azərbaycanın ərazi bütövlüyünün tam bərpasına, sərhədlərin qorunmasına və təhlükəsizliyin təmin edilməsinə imkan verməyəcək: ”Rusiya sülhməramlı kontingentinə Moskvanın işğalçı, təcavüzkar müharibələrində fəal iştirak edən generalı komandan təyin etməsini sıradan dəyişiklik hesab etmirəm. Görünür, Rusiya ermənilərlə birlikdə hansısa məkrli planlar üzərində işləyir. Odur ki, Azərbaycanın növbəti həmləsi erməni silahlı birləşmələrinin ərazilərimizdən çıxarılması olmalıdır. Azərbaycan özünün qətiyyətli iradəsini göstərməlidir ki, bizi zəif bilməsinlər”.

**İsmayıl Qocayev**

# Lentsov Qarabağdadır



## Sülhməramlıların yeni komandanı Kremlin tapşırıqlarını yerinə yetirməyə gəlib

**Rusiyanın Azərbaycandakı sülhməramlı kontingentinin komandiri təyin olunmuş general-polkovnik Aleksandr Lentsov bir neçə gündür Qarabağdadır. Ermənistan mediasının məlumatına görə, üç rusiyalı - əvvəlki komandan Volkov, Lentsov və Kremlin digər nümayəndəsi ilə iki Azərbaycan rəsmisi arasında danışıqlar aparılır.**

Ermənistan isə müzakirələrdə iştirak etmir. Erməni tərəfi iddia edir ki, danışıqlar zamanı Rusiya tərəfi azərbaycanlıların nəzarət-buraxılış məntəqəsini yığışdırmasına və yalnız rentgen skanerlərinin quraşdırılmasına nail olmağa çalışır. Yəni Qarabağa daxil olan yük maşınları birbaşa Rusiya sülhməramlılarının nəzarəti altında yoxlanılacaq. Azərbaycan tərəfi isə prosesi onlayn izləyəcək. Yayılan digər xəbərə görə, Qarabağdakı separatçıların nümayəndələri ilə general-polkovnik Aleksandr Lentsov arasında görüş keçirilib. Lentsov görüş zamanı onları əmin edib ki, hazırda yolun açılmasına çalışır.

**Azərbaycan Milli İstiqlal Partiyasının sədri Arzuxan Əlizadə "Şərq"ə bildirib ki, indiki məqamda Volkovun Lentsovla əvəzlənməsi birbaşa Laçın yolunun başlanğıcında qurduğumuz nəzarət-buraxılış məntəqəsi ilə əlaqəli deyil. Partiya rəhbəri vurğulayıb ki, Lentsovun keçdiyi hərbi xidmət yolu Volkovdan daha zəngindir**. Bu da onu göstərir ki, Moskva bölgədə gedən proseslərə daha çox diqqət ayırmaq niyyətindədir: "Ancaq Volkovun Lentsovla əvəzlənməsi Rusiya sülhməramlı kontingentinin Qarabağdakı fəaliyyətində ciddi dəyişikliyə səbəb olmayacaq. Volkovlar, lentsovlar faktiki olaraq icraçıdırlar. Onlar Rusiyanın hərbi-siyasi rəhbərliyinin konkret tapşırıqlarını həyata keçirirlər. Sülhməramlı komandanın Qarabağda özbaşına qərar alması, hərəkət etməsi qeyri-mümkündür. Bura Azərbaycanın suveren ərazisidir. "Sülhməramlı" adlandırılan rus hərbi kontingenti Azərbaycan torpaqlarında müvəqqəti yerləşdirilib. Onların vaxtının yarısı artıq bitib".

**A.Əlizadə vurğulayıb ki, Laçın yolundakı nəzarət-buraxılış məntəqəsi ilə bağlı Azərbaycan dəfələrlə həm Rusiyaya, həm də Ermənistana xəbərdarlıq etmişdi:** "Sülhməramlılar üzərinə götürdükləri öhdəliklərin heç birini yerinə yetirmir. Əksinə, bir çox hallarda öz səlahiyyətlərini aşaraq, qanunsuz hərəkətlərə rəvac verirlər. Birbaşa sülhməramlı kontingentin iştirakı ilə Qarabağa terrorçular, erməni silahlı birləşmələri daxil olur. Yük maşınları ilə silah-sursat, minalar daşınır. Təbii ki, Azərbaycan tərəfi buna dözə, səssiz qala bilməzdi. Ötən ilin dekabrın 12-dən etibarən Şuşa-Xankəndi yolu üzərində başlanmış və bugünədək davam edən ekofəalların aksiyasının da məqsədi bu cür qanunsuzluqlara "dur" demək, mane olmaq idi. Bunun üçün Laçın yolu nəzarətə götürülməliydi. Nəhayət, dediyimizi etdik, nəzarət-buraxılış məntəqəsini qurduq və sərhədçilərimizi bölgəyə yerləşdirdik. Həmin yerdə rentgen-skaner aparatları da quraşdırılıb. Bununla bağlı hansısa danışıqların getməsindən asılı olmayaraq, bir addım da geri çəkilmək niyyətimiz yoxdur. Heç kim bizi haqlı mövqeyimizdən çəkindirə bilməz".

> "Hansısa danışıqların getməsindən asılı olmayaraq, bir addım da geri çəkilmək niyyətimiz yoxdur. Heç kim bizi haqlı mövqeyimizdən çəkindirə bilməz"

**İsmayıl Qocayev**

# Silah bazarlığı...



## Rusiya-İran kəmərindəki barıtlar regiondakı kövrək təhlükəsizlik ruhunu daha da dalğalandırır

**Nüfuzlu "Wall Street Journal" nəşri İranın Rusiyanı silah-sursatla, kamikadze dronlarla təchiz etdiyini göstərən bəzi rəqəmləri açıqlayıb.**

Bəlli olub ki, İran son altı ay ərzində yük gəmiləri ilə Rusiyaya 300 mindən çox artilleriya mərmisi və bir milyon patron daşıyıb.İran Rusiyanın Ukraynada apardığı hərbi kampaniyanı dəstəkləmək üçün yük təyyarələri və Xəzər dənizi vasitəsilə silahlar daşıyır. Ekspertlərin fikrincə, yük təyyarələri ilə həyata keçirilən silah ixracına müdaxilə etmək çətindir. Ancaq Xəzər dənizində daşımaların qarşısını almaq mümkün görünür. Buna görə Xəzər dənizini bölüşən, həmsərhəd olan dövlətlərin köməyinə ehtiyac var.

**Siyasi şərhçi Aqşin Kərimov deyib ki, İrandan Rusiyaya artan silah axını uzunmüddətli perspektiv üçün regionda gərginliyin artmasını şərtləndirir. Çünki bu silah trafikinin bir qarşılığı var. İndi İran da Rusiyadan "Su-35" qırıcı təyyarələrini almağa hazırlaşır:** "Bu, Rusiyanın Ukraynadakı, İranın isə regiondakı kampaniyalarını qarşılıqlı şəkildə şirnikləndirən silsilədir. Rusiyanın İrandan istəyə biləcəyi əsas yardım elə silah daşımalarını artırmaqdır. Ancaq Tehranın Moskvadan diləyə biləcəyi başqa şeylər də var. Birincisi, İran Cənubi Qafqazda Azərbaycanın və Türkiyənin ziddinə olan platformalarda həlledici paya sahiblənmək istəyir ki, bu iş də Kremlin yardımı ilə mümkündür. Ancaq ortada incə bir xətt var, Rusiya İranla hər nə qədər yaxınlaşsa da, Tehranın regiondakı hərbi-siyasi ritorikasını sərtləşdirməsi kampaniyasının dəstəkçisi deyil. Çünki bu iki ölkə bir-birilə müharibələr aparan imperiyaların tarixi varisləridir və rəqabət indinin özündə də davam etməkdədir. İkincisi, İran nüvə silahı əldə etmək məqsədinə yaxınlaşmaqda Rusiyadan dəstək axtarır. Ancaq Moskva bu məsələdə də Tehranın maraqlarına oynamaqdansa, İsrailin və Qərbin seçimini gizlicə üstün tutur. Üçüncüsü, İran Yaxın Şərq regionunda, xüsusilə də Suriyada Türkiyəni, İsraili sıxışdırmaqdan ötrü əlləşir. Maraqlarını Rusiya ilə koordinasiya etməyə çalışır. Ancaq Rusiya Türkiyə və İsraillə münasibətlərin ruhunu nəzərə alaraq Tehrana güzəştə getməkdən yayınır. Buradan belə məntiq doğur ki, Rusiya ilə İran arasındakı silah alış-verişi Tehran üçün çoxməqsədli, Moskva üçün isə hərbi təyinatlı məsələdir".

**A.Kərimov vurğuyıb ki, hərbi-texniki sahədəki əməkdaşlıq perspektivdə Moskva-Tehran təhlükəsizlik əlaqələrinin dərinləşdirilməsini və regionda birlikdə hərəkət etmək üçün baza formalaşdırmağı stimullaşdıra bilər:** "Yəqin ki, indi İran və Rusiya silahlar kəməri ilə Yaxın Şərqdəki ümumi güc balansını kəskin şəkildə dəyişmək və ən əsası da ortaq rəqib ABŞ-ni regionda dar nöqtəyə itələmək istəyir.

Bu, mürəkkəb məsələdir, amma Çinin Yaxın Şərqdə ABŞ-nin buraxdığı strateji boşluqlara sızması Rusiya-İran xətti üçün dəstəkləyici mexanizm ola bilər. Son vaxtlar Rusiya-İran-Çin oxundakı aktivliyin artması ortaq maraqlarla Yaxın Şərqdə "at oynatmaq" planının prioritet olduğunu göstərir. Moskva-Pekin-Tehran üçlüyü Yaxın Şərq platformasında komponentləri tərsinə çevirə bilsə, bunun uzantılarını Cənubi Qafqaza da daşımağa çalışacaq. Hərçənd, Yaxın Şərqdə kütləvi şəkildə strateji planları alt-üst etmək qəlizdir. Yəqin ki, Ukraynadakı müharibənin nəticələri prosesləri daha aydın şəkildə nümayiş etdirəcək. Hər halda ABŞ-nin Yaxın Şərq üzrə siyasətində risklər mövcuddur və bunun qarşısını almaqdan ötrü Vaşinqton müttəfiqi İsraili dəstəkləməklə yanaşı, Türkiyə ilə əlaqələrini yenidən nəzərdən keçirməlidir. Nəticə olaraq, Rusiya-İran kəmərindəki barıtlar regiondakı kövrək təhlükəsizlik ruhunu daha da dalğalandırır. Çinin vasitəçiliyi ilə İranla Səudiyyə Ərəbistanı yaxınlaşıb. Lakin bu, regionda uzunmüddətli sabitliyi poza bilən amilləri həll edə bilmir. Çünki İran potensial nüvə silahına can atır, üstəgəl o, Rusiyadan yeni silahlar alsa, bu, Tehranın İsraillə münaqişə dinamikasını daha da gərginləşdirəcək".

**İsmayıl**

# "Məktub beynəlxalq təşkilatın blankında yazılıb"

## Çingiz Qənizadə: "İnanmıram ki, BQXK bu boyda saxtakarlığa getsin"



**"İki əsgərimiz qeyri-qanuni və saxta ittihamlarla Ermənistanda həbs edilib. Bütün vasitələrdən istifadə etməklə məhkəməni və istintaqı gözləmədən əsgərlərimizin azad olunması üçün əlimizdən gələni etməliyik".**

Bunu "Şərq"ə açıqlamasında Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri, hüquq üzrə fəlsəfə doktoru Çingiz Qənizadə deyib. Hüquq müdafiəçisi bildirib ki, istintaq və məhkəməni gözləsək, bu proses uzanacaq: "Təbii ki, gec-tez iki əsgərimizi ermənilərdən alacağıq. Düzdür, erməni tərəfi bunu alver predmetinə çevirə bilər, amma əsas odur ki, əsgərlərimizin Azərbaycana sağ-salamat qayıtması reallaşacaq. Məktubla bağlı isə onu deyim ki, inanmıram ki, beynəlxalq təşkilat olan Qırmızı Xaç Komitəsi bu boyda saxtakarlığa getsin və başqa adamın yazdığı məktubu əsgərin anasına çatdırsın. Dürdanə xanım anadır, təbii ki, övladının taleyinə görə narahatdır. Xüsusən, əsirlərimizə qarşı işgəncələri əks etdirən videogörüntülərin yayılmasından sonra valideynlərin narahatlığını başa düşürük. Ancaq BQXK əsgərlərimizlə bağlı məsələni nəzarətə götürübsə, onların taleyi və sağlamlığı şübhə altında ola bilməz. Onların üzərində beynəlxalq bir qurumun nəzarəti var. Məktub da beynəlxalq təşkilatın blankında yazıldığı üçün saxta olduğuna, kimlərinsə diktəsi ilə yazıldığına inanmıram. Sadəcə indiki durumda hər iki əsgərimizin ailəsi dözümlü və mətin olmalıdır. Azərbaycan dövləti və onun Prezidenti heç bir vətəndaşının taleyinə biganə qalmayacaq. Ona görə əminliklə qeyd edirəm ki, əsgərlərimiz Azərbaycana sağ-salamat qayıdacaqlar. Bu, mütləq baş verəcək".

*Qeyd edək ki, Ermənistanda əsir saxlanılan Azərbaycan Ordusunun əsgəri Aqşin Bəbirov anası Dürdanə Bəbirovaya məktub göndərib. Lakin Dürdanə Bəbirova məktubun oğlu tərəfindən yazıldığına şübhə ilə yanaşdığını söyləyib. Onun sözlərinə görə, məktub oğlunun xətti ilə yazılmayıb. Anası deyib ki, o, övladının xəttini tanıyır: "Bizə verilən məktubu o yazmayıb. Oğlumu 100 faiz sorğu-sual ediblər, oğlum deyib, ermənilər də yazıb. Öz xəttinə qətiyyən oxşamır".*

**İsmayıl**

# Müşfiqabad qəsəbəsində ağacəkmə aksiyası keçirilib

## Məqsəd Ümummilli Liderin təbiətə, yaşıllıqlara qayğı ənənələrini davam etdirməkdir



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Medianın İnkişafı Agentliyi, Audiovizual Şura və Mətbuat Şurasının birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş ağacəkmə aksiyası keçirilib.**

"Şərq" xəbər verir ki, ölkəmizdə ekologiyanın qorunması və ətraf mühitin sağlamlaşdırılmasına hər zaman böyük önəm vermiş Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü münasibətilə dövlət rəsmilərinin, media subyektlərinin rəhbərlərinin və nümayəndələrinin iştirakı ilə Müşfiqabad qəsəbəsində keçirilən ağacəkmə aksiyası zamanı Abşeron yarımadasının torpaq-iqlim şəraitinə uyğun Eldar şamı və zeytun ağacları əkilib.

Ağacəkmə aksiyasının keçirilməsində məqsəd Ulu Öndər Heydər Əliyevin əziz xatirəsini yad etmək, Ümummilli Liderin təbiətə, yaşıllıqlara qayğı ənənələrini davam etdirməkdir.

**Aygün**

# "Normallaşma üçün Fransa prezidenti dəyişməlidir"

## Fransız nazirin səfəri Bakı və Paris arasında buzları əritməyəcək



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 27-də Fransa Respublikasının Avropa və xarici işlər naziri Ketrin Kolonnanı qəbul edib.**

Prezident İlham Əliyev Fransanın Avropa və xarici işlər nazirinin regiona səfər etdiyini vurğulayaraq bu çərçivədə eyni zamanda regional əməkdaşlıq və regional təhlükəsizlik məsələlərinin də müzakirə olunacağına ümidvarlığını bildirib.

Dövlətimizin başçısı 44 günlük Vətən müharibəsi başa çatandan dərhal sonra məhz ölkəmizin Ermənistanla qarşılıqlı şəkildə bir-birinin ərazi bütövlüyünü və suverenliyini tanımaqla sülh müqaviləsi imzalamaq təklifini irəli sürdüyünü və bunun üçün rəsmi İrəvana 5 prinsip təqdim etdiyini vurğulayıb.

Prezident İlham Əliyev bildirib ki, 2020-ci il noyabrın 10-da üçtərəfli bəyanatın imzalanmasından və 44 günlük Vətən müharibəsinin başa çatmasından sonra Ermənistan öz üzərinə düşən öhdəliklərini yerinə yetirmir. Bu xüsusda dövlətimizin başçısı vurğulayıb ki, Ermənistan Naxçıvanla dəhlizin yaradılmasına imkan vermir, öz qoşunlarını Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərindən çıxarmır və Laçın dəhlizindən sui-istifadə edərək Qarabağa silah-sursat və digər hərbi təyinatlı məhsulların daşımasını həyata keçirirdi.

Prezident İlham Əliyev Azərbaycan-Ermənistan sərhədində, Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd-buraxılış məntəqəsinin qurulmasını ölkəmizin suveren hüququ və ərazi bütövlüyümüzün təmin olunmasının ifadəsi olduğunu qeyd edib.

Ketrin Kolonna isə bildirib ki, Fransa Azərbaycanda və ümumiyyətlə, Cənubi Qafqaz regionunda sülhün, iqtisadi və sosial inkişafın mövcud olmasını istəyir və ölkəsinin məqsədi həmişə bundan ibarət olub. Qonaq Fransanın ikitərəfli əlaqələrə, eyni zamanda Avropa İttifaqı çərçivəsində əlaqələrə böyük önəm verdiyini bildirərək bu istiqamətdə geniş potensialın mövcud olduğunu deyib.

Həmçinin görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

**Səfəri "Şərq"ə dəyərləndirən siyasi şərhçi Abutalıb Səmədov söyləyib ki, Laçın dəhlizində nəzarət-buraxılış məntəqəsinin açılması beynəlxalq hüquqa və 10 noyabr bəyanatına tamamilə uyğundur:** "Prezidentin də qeyd etdiyi kimi, bu addım Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün təsdiq edilməsi istiqamətində atılıb. Eyni zamanda həm Praqa, həm də Soçidə Ermənistan, Fransa və Rusiya Azərbaycanın ərazi bütövlüyünü qəbul etdiklərini imzaları ilə təsdiq ediblər. Həmçinin nəzərə alınmalıdır ki, Ermənistan 10 noyabr bəyanatının müddəalarını pozaraq qanunsuz silahlı dəstələrini hələ də Azərbaycan torpaqlarından çıxarmayıb. Zəngəzur dəhlizinin açılması istiqamətində heç bir addım atmayıb. Digər bir mühüm məqam isə rus sülhməramlılarının Laçın dəhlizi boyunca yerləşməsidir. Yəni onların sərhəddə durmağa ixtiyarı yoxdur. Onlar yalnız 22 kilometrlik bir ərazidə öz postlarını qura bilər. Ona görə də nəzarət-buraxılış məntəqəsinin qurulması düzgün və vaxtında atılmış addımdır".

**A.Səmədov qeyd edib ki, fransalı nazirin səfəri ilə rəsmi Bakı və Paris arasındakı münasibətlər ciddi şəkildə normallaşmayacaq:**

"Normallaşma üçün Fransa prezidenti dəyişməlidir və dünya siyasətindən baş çıxardan bir lideri olmalıdır. Təəssüf ki, biz Makron haqqında bunları söyləyə bilmərik. Çünki o, dünyanın gülüş hədəfinə çevrilib və heç kəs onu ciddi siyasətçi kimi qəbul etmir. Ona görə də bu səfər Azərbaycan və Fransa arasındakı münasibətlərdə ciddi dəyişikliklər yarada bilməz. Ancaq ermənilərə müəyyən reallıqları anlamağa kömək edər. Çünki onlar Fransaya çox arxalanırlar. Bəlkə fransalı nazirin bu səfərinin heç nəyi dəyişdirmədiyini görəndə onlar Azərbaycana heç kəsin təzyiq göstərə bilməyəcəyini dərk etsin. Ölkəmizin Qarabağ üzərində suverenliyinin təmin edilməsi məqsədilə növbəti addımlar yenə atılacaq.

Qarabağda yaşayan ermənilər bizim vətəndaşlığımızı nə qədər tez qəbul etsələr, bu, onların xeyrinə olacaq. Ona görə ki, rəhbərlikdən fərqli olaraq torpaqlarımızda olan ermənilərin Qarabağdakı evlərindən başqa gedəcək yerləri yoxdur.

Əgər onlar bizim vətəndaşlığımızı qəbul etməsələr, təbii ki, bizim ərazilərimizi tərk edərək yeni yaşayış məntəqələri axtarmalıdırlar. Bu da onlar üçün çox böyük fəlakət deməkdir".

**Nihat Müzəffər**

# "Zərifə Əliyeva - 100" adlı layihə təqdim olundu





## Elektron layihə alimlərin, magistr və tələbələrin, eləcə də geniş oxucu kütləsinin müraciət edəcəyi elmi mənbə olacaq

**Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Mərkəzi Elmi Kitabxanası (MEK) tərəfindən ərsəyə gələn "Zərifə Əliyeva - 100" adlı elektron layihəsinin təqdimatı keçirilib.**

Layihənin təqdimatında çıxış edən MEK-in baş direktoru professor Məmməd Əliyev bildirib ki, 2023-cü ilin aprel ayında Azərbaycanın görkəmli alimi, Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü Zərifə Əziz qızı Əliyevanın anadan olmasının 100 ili tamam olur. "Yubileyini qeyd etdiyimiz akademik Zərifə Əliyeva zəngin mənəviyyata sahib mənalı ömür yolu keçib, əhatəli elmi fəaliyyəti ilə ölkəmizdə tibb sahəsinin, xüsusilə oftalmologiyanın inkişafına əhəmiyyətli töhfələr vermiş mənəvi və insani keyfiyyətləri ilə Azərbaycan qadınının nümunəvi obrazını özündə ehtiva edir. Akademik Zərifə Əliyevanın ömür yolu qazanılan uğurlarla zəngindir. Oftalmologiyanın inkişafına verdiyi böyük töhfəyə görə Zərifə Əliyeva bu sahədə ən yüksək mükafata - SSRİ Tibb Elmləri Akademiyasının akademiki M.İ.Averbax adına mükafatına layiq görülən ilk qadındır. Elmi-tədqiqat fəaliyyəti ilə yanaşı, böyük alim Zərifə Əliyeva respublikada yüksəkixtisaslı kadrların hazırlanması işinə gərgin əmək sərf edib, gənc alimlərin, oftalmoloqların böyük bir nəslini formalaşdırıb. Ümummilli Lider Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı, sədaqətli dostu və etibarlı silahdaşı, bu gün dünya liderləri arasında tanınan möhtərəm Prezidentimizin anası Zərifə xanım Əliyeva xalqımız tərəfindən hər zaman ehtiramla yad olunacaq, onun xalq qarşısında, Azərbaycan səhiyyəsi qarşısında misilsiz xidmətləri daim minnətdarlıq hissi ilə qeyd ediləcək.

Prezident İlham Əliyevin Akademik Zərifə Əliyevanın 100 illik yubileyinin qeyd edilməsi haqqında Sərəncamına əsasən ölkədə silsilə tədbirlər keçirilir. Bu gün Mərkəzi Elmi Kitabxana olaraq görkəmli şəxsiyyətin yubileyinə öz töhfəmizi - "Zərifə Əliyeva - 100" adlı layihəmizi təqdim edirik. Elektron layihə artıq kitabxananın saytında oxucuların istifadəsinə verilib. Bundan əlavə, tezliklə Zərifə Əliyeva biblioqrafiyası da oxuculara təqdim olunacaq",- deyə baş direktor diqqətə çatdırıb.

Çıxışı zamanı professor Məmməd Əliyev onu da vurğulayıb ki, kitabxanada görkəmli alimin zəngin və çoxşaxəli həyat və fəaliyyətini əks etdirən nəşrlərdən ibarət sərgi də təşkil olunub.

Daha sonra MEK-in Avtomatlaşdırma və proqram təminatı şöbəsinin müdiri Natavan Hacıyeva təqdimatı keçirilən elektron baza haqqında ətraflı məlumat verib. Bildirilib ki, 6 bölmədən ibarət elektron resursda materiallar pdf formatında təqdim edilib. Burada görkəmli oftalmoloqun elmi və ictimai fəaliyyətini əks etdirən yazılar, öz əsərləri, haqqında yazılan əsərlər, eləcə də nailiyyətləri təqdim edilib. Həmçinin elektron resursda dövri mətbuat materialları - 1960-cı ildən başlayaraq respublika və keçmiş SSRİ-nin qəzet və jurnallarında dərc olunan və akademik Zərifə Əliyevanın elmi nailiyyətlərini əks etdirən minə yaxın analitik yazı xronolji ardıcıllıqla verilib. N.Hacıyeva onu da diqqətə çatdırıb ki, Elektron resursun Fotoqalereya bölməsində görkəmli akademikin şəkillərindən ibarət videomaterial yerləşdirilib. Əminliklə qeyd olunub ki, "Zərifə Əliyeva - 100" adlı elektron layihə alimlərin, magistr və tələbələrin, eləcə də geniş oxucu kütləsinin müraciət edəcəyi elmi mənbə olacaq.

**Qərb dövlətlərinin Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesində iştirakı münasibətlərin daha da gərginləşməsinə gətirib çıxarır. Bunu Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova deyib. Fransanın xarici işlər naziri Ketrin Kolonnanın Cənubi Qafqaz ölkələrinə səfərini şərh edən Zaxarova bildirib ki, Qərb dövlətləri həmişə Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasında iştirak etdiklərini bəyan edir. Lakin onların bu istiqamətdə fəaliyyəti konstruktiv deyil.**



# Qərb də, Rusiyada reallıqlarla barışıb

## Son hadisələr də göstərir ki, regionda situasiya Azərbaycanın xeyrinə dəyişməkdədir

Rusiya XİN rəsmisi Laçın yolundakı vəziyyətdən də danışıb. Qeyd edib ki, Moskva hazırda Laçın dəhlizində vəziyyətin siyasi yolla stabilləşdirilməsi üçün lazımi addımlar atır: "İnanırıq ki, tərəflər üçtərəfli razılaşmanın şərtlərini yerinə yetirəcək. Ermənistan tərəfinin də bu məsələnin həllinə öz töhfəsini verməsini gözləyirik". Zaxarova əlavə edib ki, Rusiya ərazisində Ermənistan, Rusiya və Azərbaycan xarici işlər nazirlərinin üçtərəfli görüşünə dair razılaşma artıq var, tarix daha sonra açıqlanacaq. Məlumat üçün deyək ki, Fransanın Avropa və xarici işlər naziri Ketrin Kolonna Bakıda səfərdədir. Azərbaycanda görüşlər keçirən Fransa nümayəndəsi Bakıdan sonra İrəvana səfər edəcək.

**Qərb və Rusiyanın vasitəçilik təşəbbüsü uğrunda mübarizəsini "Şərq"ə təhlil edən Azad Vətən Partiyasının sədri Akif Nağı bildirib ki, məhz 44 günlük müharibədəki qələbədən sonra həm Qərb, həm də Rusiya Azərbaycanla hesablaşmaq məcburiyyətində qaldı. Partiya rəhbərinin sözlərinə görə, buna rəğmən, üçtərəfli saziş imzalanan gündən bu yana Qərb və Rusiyadan rəsmi Bakıya təzyiq göstərmək cəhdlərini müşahidə etmişik:** "ABŞ, Avropa Birliyi, o cümlədən Rusiya çalışıb ki, Azərbaycan onların dediklərini qəbul etsin, müəyyən məsələlərdə güzəştə getsin və s. Ancaq rəsmi Bakı öz qətiyyətli mövqeyindən heç vaxt geri çəkilməyib və sonadək mübarizə aparıb. Son hadisələr də göstərir ki, regionda situasiya Azərbaycanın xeyrinə dəyişməkdədir. Uzun zamandır Laçın yolu ilə bağlı xəbərdarlıq edirdik, Qarabağ məsələsinin daxili işimiz olduğunu vurğulayırdıq. Lakin nə Qərb, nə də Rusiya bunu qəbul etmək istəmirdi. Bir neçə ay öncə Rusiya XİN başçısı Sergey Lavrov demişdi ki, Laçın yoluna rus sülhməramlıları nəzarət edir, onda görə də orada başqa qüvvələrə ehtiyac yoxdur. Azərbaycan Rusiyanın və Qərbin iradəsinin əksinə olaraq Laçın yolu üzərində nəzarət-buraxılış məntəqəsini qurdu. Artıq yeni situasiya formalaşıb. O baxımdan ABŞ, Avropa ölkələri və Rusiya mövqelərinə yenidən baxmaq məcburiyyətindədir".

**A.Nağı bəyan edib ki, Moskva buna sülhməramlı kontingentin komandanını dəyişərək reaksiya verdi:** "Kreml Volkovu general-polkovnik Aleksandr Lentsovla əvəzlədi. Yeni komandanın hansı missiya ilə Qarabağa göndərildiyini bilmirik. Xəbərlər yayılır ki, onun arvadı erməni əsillidir. Yaxın vaxtda hər şey aydınlaşacaq. Fransa xarici işlər nazirinin Cənubi Qafqaza səfəri və səfərə Bakıdan başlaması da təsadüfi deyil. Rəsmi Paris Azərbaycanla hesablaşmalı və bizim mövqeyimizi İrəvana qəbul etdirməlidir. Rusiyanın qısqanclığı, Qərbin regiona müdaxiləsinə hiddətlənməsi təbii haldır. Vasitəçilik təşəbbüsü uğrunda açıq mübarizə gedir. Ancaq Kreml anlamalıdır ki, rəsmi Bakının öz mövqeyi, yanaşması var. Nə Qərb, nə də Moskva bunu dəyişdirmək gücündədir".

**İsmayıl Qocayev**

# Ərdoğan seçkidə 60 faiz civarında səs yığacaq

## Rəy sorğusunun nəticəsi Azərbaycan xalqının siyasi mövqeyi deməkdir



**Sosial Tədqiqatlar Mərkəzi Türkiyədə seçkilərdən sonrakı mərhələdə Türkiyənin Qarabağ məsələsi və Azərbaycana dair siyasəti ilə bağlı gözləntiləri sorğu əsasında öyrənib. Qeyd olunub ki, ölkə əhalisinin Türkiyənin siyasi gələcəyinə müstəsna marağı, seçkilərin Azərbaycan üçün tarixi əhəmiyyəti nəzərə alınaraq, vətəndaşların rəy və gözləntilərini öyrənmək zəruri sayılıb:**

"Məlum olduğu kimi, seçkilər dörd namizədin rəqabəti ilə keçirilir və sorğular da məhz namizədlər arasında müqayisəli dəyərləndirməni özündə əks etdirir. Azərbaycan xalqı seçkilərə milli mənafeyimiz, eləcə də regional maraqlar prizmasından yanaşır və dəyərləndirir". Respondentlərin 68,7 faizi hesab edir ki, seçkilərdə yalnız Rəcəb Tayyib Ərdoğan qalib gələrsə, Türkiyə bütün imkanları ilə Azərbaycanın yanında olmağa davam edəcək. Qeyd edilib ki, çoxaktorlu müxalifətin üzərində uzlaşa biləcəyi xarici siyasi kursun mümkünlüyü bir sıra ekspertlər tərəfindən də riskli hesab olunur. Bu təhdid Türkiyənin təkcə Azərbaycana yönəlik siyasət üçün deyil, bütövlükdə region, Yaxın Şərq, türk-islam dünyası və Rusiyaya yönəlik siyasəti üçün də xarakterik hesab olunur. Nəticələr göstərir ki, Azərbaycan ictimaiyyəti Türkiyənin xarici siyasət kursunda və regional hədəflərlə bağlı prinsipial mövqeyində davamlılığın, yaxud dəyişikliyin seçki nəticələrindən asılı olaraq müəyyənləşəcəyini düşünür. Respondentlərin mütləq əksəriyyəti, yəni 90 faizi keçiriləcək seçkilərdə Rəcəb Tayyib Ərdoğanın qalib gəlməsini istəyir. İştirakçıların mütləq əksəriyyəti tərəfindən dəstəklənən Rəcəb Tayyib Ərdoğanla bağlı rəylərini nəzərdən keçirdikdə, onların əsas hissəsi mövqeyini Ərdoğanın Vətən müharibəsində Azərbaycana göstərdiyi dəstəklə əsaslandırıb. Respondentlərin 26 faizi isə namizədlərin hansının seçilməsindən asılı olmayaraq, Türkiyə dövlətinin Azərbaycana dəstəyinin davam edəcəyini düşünür.

**Sorğunun nəticələri ilə bağlı "Şərq"ə danışan siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev deyib ki, Sosial Tədqiqatlar Mərkəzinin açıq sorğusu tamamilə reallığı əks etdirir.** Professorun sözlərinə görə, rəy sorğusunun nəticəsi Azərbaycan xalqının siyasi mövqeyi deməkdir: "Azərbaycan xalqı 44 günlük Vətən müharibəsində və ondan sonrakı dönəmdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı və onun komandasını yanında görüb. Türkiyə daxilində prezidentə münasibətin necə olmasından asılı olmayaraq Azərbaycanda Ərdoğana, Hulusi Akara, Mövlud Çavuşoğluna böyük hörmət, rəğbət və ehtiram var. Türkiyədə iqtidarda olan qüvvə bu savaşda Azərbaycanın yanında olmaya bilərdi. İndiki mövqe və hərtərəfli dəstək birbaşa Ərdoğanla bağlıdır. Nəzərə alaq ki, Azərbaycana qarşı hər tərəfdən çox ciddi təhdidlər var. Ona görə də yanımızda Türkiyə kimi güclü bir dövlətin olması zərurətdir. Əlbəttə, Türkiyədə seçkinin taleyini xalq özü müəyyən edəcək. Respondentlər isə sadəcə öz arzularını bəyan ediblər. Əminəm ki, Ərdoğan seçkidə 60 faiz civarında səs yığa biləcək. Ərdoğan niyə qalib gəlməlidir? Təkcə Türkiyə və Azərbaycan yox, türk və islam dünyasının təhlükəsizliyi, rifahı üçün Ərdoğan Türkiyənin başında olmalıdır. Ərdoğan Türkiyəni kənar güclərin, "dərin dövlət"in əlindən ala bildi və böyük layihələri icra etdi. Ankara üzərində hökm etmək səlahiyyəti olanlar səhnədən uzaqlaşdırıldı. Bütün kənar təzyiqlərə, süni əngəllərə rəğmən, qardaş ölkənin siyasi-iqtisadi, hərbi gücü göz önündədir. Müxalif güclərin hakimiyyətə gəlməsi isə həm Türkiyə, həm də ümumilikdə türk-islam dünyası üçün, region üçün fəlakət deməkdir. Ona görə də arzulayırıq ki, Ərdoğan seçkidə qalib olsun".

**İsmayıl Qocayev**



# Mayın 1-dən ibtidai siniflər üçün bir həftəlik tətil başlayır

**Azərbaycanın orta məktəblərində mayın 1-dən etibarən ibtidai siniflər üçün 5 günlük əlavə yaz tətili başlayır.**

Tətil mayın 5-dək davam edəcək.

Mayın 6-sı şənbə, mayın 7-si isə bazar gününə təsadüf etdiyindən ibtidailər ardıcıl 7 gün evdə olacaqlar. İbtidai siniflər üçün mayın 8-i dərs günüdür.

*Qeyd edək ki, ümumi təhsil müəssisələrində dərslər sentyabrın 15-də başlayıb iyunun 14-də başa çatır.*

# Türkiyənin sürət qatarı mayın sonuna qədər ödənişsiz olacaq




**Türkiyənin Ankara-Sivas yüksək sürətli qatar xətti may ayının sonuna qədər ödənişsiz olacaq.**

TurkicWorld-un məlumatına görə, bu barədə Türkiyə Respublikasının prezidenti Rəcəb Tayyib Ərdoğan öz rəsmi sosial media hesabında bildirib.

Qeyd edək ki, 2009-cu ildə Ankara-Eskişehir xəttinin istifadəyə verilməsi ilə Türkiyə yüksək sürətli qatar texnologiyası ilə tanış olub. Daha sonra bu xəttin ardınca 2011-ci ildə Ankara-Konya, 2013-cü ildə Əskişəhər-Konya, 2014-cü ildə Ankara-İstanbul və Konya-İstanbul xətləri istifadəyə verilib. Nəhayət, 2022-ci ilin yanvar ayında Konya-Karaman xətti istifadəyə verilib.

Məlumat üçün bildirək ki, Ankara-Sivas Yüksək Sürətli qatar xəttinin tikintisinə 2007-ci ildə başlanılıb. Dəmir yolu xəttinin uzunluğu 393 kilometrdir.

Qatar xətti aprelin 26-da istifadəyə verilib.

# Paşinyan sülh müqaviləsində maraqlıdır

## Ancaq danışıqlar masasına qayıtmaq təkcə ondan asılı deyil



**"Yaxın zamanlarda Ermənistanın danışıqlar masasına qayıtması gözlənilir". Bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Fransanın Avropa və xarici işlər naziri Ketrin Kolonna ilə birgə keçirdiyi mətbuat konfransında deyib.**

Onun sözlərinə görə, Ermənistanın qeyri-konstruktiv mövqeyinə görə ötən ilin noyabrından bəri fiziki təmaslar olmayıb: "Ancaq beynəlxalq təşkilatların təkidi nəticəsində yaxın zamanlarda Ermənistanın danışıqlar masasına qayıtması gözlənilir. Nəqliyyat-kommunikasiya xətlərinin açılması və delimitasiya prosesi olduqca vacib məsələdir".

**Rəsmi İrəvanın danışıqlar masasına qayıtmasının təkcə Nikol Paşinyandan asılı olmadığını deyən siyasi şərhçi Kənan Novruzov "Şərq"ə vurğulayıb ki, bu həm də Ermənistan üzərində ağalıq etmək istəyən Qərb və Rusiya mübarizəsinin nəticəsindən asılıdır:**

"Əslində əvvəllər Paşinyanın nalamıxa vurmağı ABŞ və Kreml rəqabəti konteksindən qiymətləndirilirdi. İndi isə artıq o üç stulda oturmağa məcburdur. Bunlar ABŞ, Rusiya və Aİ-dir. Bunlardan hər üçünün regionla bağlı maraqları var və onlar başa düşürlər ki, bölgədə mövcud olmaq üçün yalnız Azərbaycanla Ermənistan arasında bağlanacaq sülh müqaviləsi kartından istifadə edə bilərlər. Rusiyaya nisbətən Qərb müqavilənin bağlanmasına daha maraqlıdır. Çünki Qərb sakitliyin olması ilə iqtisadi maraqlarının təmin edilməsinin tərəfdarıdır. Rusiya isə əksinə, gərginlik olmasa, regiondakı mövcudluğunu qoruya bilməyəcəyini düşünür. Lakin Vaşinqton və Brüssel də heç "süddən çıxmış ağ qaşıq" deyil. Paşinyanın hansı mövqe sərgiləyəcəyi də bu rəqabətin nəticəsindən asılıdır. Məncə, Paşinyan sülh müqaviləsində maraqlıdır. Əks halda belə cəsarətli addımlar atmazdı. Hər kəsə məlumdur ki, o Qərbin layihəsidir. Bu mənada cəsarətli bəyanatlar verməyi də təəccüblü deyil".

*Analitikin sözlərinə görə, Rusiyanın regiondakı təsir gücünün zəifləməsi fonunda Azərbaycan və Ermənistan arasında sülh müqaviləsi istiqamətində müəyyən addımlar atıla bilər:*

"Paşinyan nə qədər vaxt uzatmaq istəsə də, artıq vəziyyət gərginləşir. Bıçaq sümüyə dirənib. Hətta Ermənistan mətbuatı yazır ki, o, parlamentə mühafizəçilərlə gedir və sui-qəsd ehtimalından narahatdır. Bu da təbiidir. Üç stulda oturmağa davam etdikcə onun həyatı da, hakimiyyəti də təhlükədə olacaq. Həm Rusiya, həm də Qərb Paşinyan üzərində təzyiq qurmaq üçün istənilən üsuldan istifadə etməyə hazırdır".

**K.Novruzov əlavə edib ki, yaxın zamanda Rusiya və ABŞ da üçtərəfli danışıqların olması gözləniləndir:**

"Hər halda danışığın olmasının özü bir nəticədir. Bu il ciddi nəticələri müşahidə edə bilərik. Hətta Türkiyədəki seçkilərə qədər həm hərbi, həm də diplomatik sahədə ciddi hadisələrin şahidi olacağımız mümkündür".

**Nihat Müzəffər**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi;**

*"Bir bölgə haqqında ictimai-siyasi addımlar atılmadan öncə hədəf kütləsinin oranı çox yaxşı bilməsi gərəklidir"*



# Orta və gənc nəslə daha çox iş düşür

## Qərbi Azərbaycana qayıdış məsələsində gənclərin rol oynaması təqdirəlayiqdir

**Xəbər verdiyimiz kimi, bir neçə gün qabaq Qərbi Azərbaycan İcmasında "Qərbi Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında könüllülərin fəaliyyətinin təşviq edilməsi" məqsədilə məlumatlandırma sessiyası keçirilib. İcma sədri deputat Əziz Ələkbərli məhz bu cür çağırışların dünya ictimaiyyətinə çatdırılmasında gənclərin fəaliyyətinin intensivləşdirilməsinin zəruriliyini qeyd edib. Bildirib ki, biz Qərbi Azərbaycan həqiqətlərini bilən, məlumatı olan gənclik yetişdirməliyik: "Biz Qarabağla bağlı həqiqətlərimizi yavaş-yavaş dünyaya çatdırmaqdayıq.**

İndi isə Qərbi Azərbaycanla bağlı həqiqətləri dünyaya çatdırmaq, təbliğ etməyin zamanıdır və bu, bir nəfərin işi deyil". Əziz Ələkbərli soydaşlarımızın tarixi torpaqlarına sülh yolu ilə qayıtması məsələsinə toxunub. İcma sədri qərbi azərbaycanlıların öz yurdlarında təhlükəsizliyinin vacibliyini diqqətə çatdırıb. O, məhz bu cür çağırışların dünya ictimaiyyətinə çatdırılmasında gənclərin fəaliyyətinin intensivləşdirilməsinin zəruriliyini qeyd edib.

Gənclər və idman nazirinin müavini İndira Hacıyeva isə gənclərin azərbaycanlıların öz yurd-yuvasına geri qayıtması uğrunda apardığı bu haqq mübarizəsində daha yaxından iştirak etməsinin çox böyük önəm daşıdığına diqqət çəkib: "Azərbaycan gəncliyi istər ölkə daxilində, istərsə də xaricdə bu mübarizəyə dəstək verəcək kifayət qədər gücə və əzmə malikdir". Digər çıxışçılar da Qərbi Azərbaycan mövzusunun hər bir azərbaycanlının milli məsələsi olması və gənclərin bu məsələdə fəallıq göstərməli olduğunu xüsusilə vurğulayıblar. Azərbaycan Könüllü Təşkilatları İttifaqının (AKTİ) sədri Yusif Vəliyev deyib ki, Qərbi Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması üçün əllərindən gələni edəcəklər: "Qırx dörd günlük Vətən müharibəsində Azərbaycan gəncləri ön sırada idilər. Onlar, həmçinin arxa cəbhədə informasiya savaşında fəallıq göstərirdilər. Bu gün də Azərbaycan gəncləri Şuşada ekoaksiyada böyük ruh yüksəkliyi ilə iştirak edirlər".

Xatırladaq ki, bu yaxınlarda Qərbi Azərbaycan İcmasının Gənclər Birliyinin ilk iclası da keçirilib. İcmanın Gənclər Birliyinin sədri, deputat Ramin Məmmədov qeyd edib ki, Qərbi Azərbaycana qayıdış məsələsi bu gün hər bir azərbaycanlının, o cümlədən gənclərin ən ümdə vəzifələrindən biri kimi gündəmdədir. O bildirib ki, hər bir gəncin üzərinə düşən əsas vəzifə bu proseslərdə fəallıq göstərmək, həqiqətləri həm də müasir texnoloji imkan və vasitələrdən istifadə edərək çatdırmaqdan ibarətdir. Qərbi Azərbaycan İcmasının Gənclər Birliyinin sədr müavini, deputat Kamal Cəfərov da vurğulayıb ki, gənclər təmsil olunduqları müxtəlif qurum və platformalarda vahid mövqedən çıxış etməli, Qərbi Azərbaycana qayıdışla bağlı aparılan işlərin bir parçasına çevrilməli və hər bir gənc bu işə öz töhfəsini verməyə çalışmalıdır. Deputat Səbinə Xasayeva çıxışında tarixi faktlara söykənməklə zamanın reallıqlarını doğru dəyərləndirərək mübarizə aparmağı hər bir gənc üçün vacib hesab etdiyini bildirib. Diqqətə çatdırılıb ki, bu gün hər bir gənc özünü Qərbi azərbaycanlı hesab etməli, bilik və potensialını istifadə edərək doğma torpaqlarımıza qayıdışa töhfələr verməlidir. İctimaiyyət nümayəndələri də bəyan ediblər ki, Qərbi Azərbaycan məsələsinin gənclər tərəfindən təfsilatlı əxz olunması və bu istiqamətdə genişmiqyaslı təbliğat aparılması, həqiqətlərin dünya ictimaiyyətinin diqqətinə çatdırılması olduqca vacibdir. Onların sözlərinə görə, Qarabağ məsələsindən sonra ölkənin vətənpərvər gənclərinin əsas hədəfi Qərbi Azərbaycan olmalıdır.

**İrəvan şəhərində anadan olmuş tanınmış araşdırmaçı-jurnalist, "Çapar" dərgisinin baş redaktoru Dilqəm Əhməd "Şərq"ə açıqlamasında deyib ki, Qərbi Azərbaycana qayıdış məsələsində gənclərin rol oynaması təqdirəlayiqdir. Araşdırmaçı-yazar bildirib ki, 1988-ci ildə köç edən birinci yaşlı nəsil artıq vəfat edib:** "Hazırda yaşı 60-ın üzərində olan nəsil ən yaşlıdır. Onların isə bəziləri ya təqaüddədir, ya da ki müxtəlif işlərdə çalışırlar. Bu baxımdan orta və gənc nəslə daha çox iş düşür. Mən həmişə bir məsələni vurğulamışam. Bir bölgə haqqında ictimai-siyasi addımlar atılmadan öncə hədəf kütləsinin oranı çox yaxşı bilməsi gərəklidir. Məsələn, bu gün Güney Azərbaycanla da bağlı çoxlu tədbirlər keçirilir. Amma Güney Azərbaycan haradır, tarixi, coğrafiyası necədir, çox adam bilmir. Çünki öncə zəruri işlər görülməlidir. İrəvanda doğulan şəxslərin övladları bu gün ata yurdları haqqında nə qədər biliklidirlər? Bu baxımdan müfaviq saytlar qurulmalı, filmlər çəkilməli, bələdçi kitablar yazılmalıdır. Bunu isə gənclər etməlidirlər. Xüsusən də, bu saytlar və bələdçi kitablar həm də bölgənin gerçək tarixinin dünyada tanıdılması üçün ingilis, fransız, alman və s. dillərdə də olmalıdır".

**D.Əhməd vurğulayıb ki, gənclər bölgənin həm keçmişini, həm də son 150 illik tarixini daha yaxşı bilməlidirlər:** "Xüsusən, İrəvan xanlığının işğalından 1920-ci ilə qədər olan proseslər diqqətli öyrənilməlidir. Şəxsən mənə gəldikdə isə artıq gənc sayılmıram, öz tədqiqat sahəm var. Mən tədqiqat sahəmə uyğun olaraq İrəvandan Türkiyəyə köçləri araşdırıram. Bu köçlərin əsas səbəblərindən biri də erməni zülmüdür. Bu baxımdan zamanla Qərbi Azərbaycanda türklərin sayının azalması səbəbləri araşdırılmalıdır. Mən də bu köçləri və irəvanlı mühacirləri tədqiq edirəm. Ümid edirəm ki, bu işlərim ümumi prosesə faydalı olar".

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub





# "Əsgərlərimiz əsirlikdən azad ediləcəklər"

## Səadət Bənənyarlı: "Məsələ Azərbaycan dövlətinin diqqətindədir, dövlət səviyyəsində iş gedir"

**Ermənistanda əsir saxlanılan Azərbaycan Ordusunun əsgəri Hüseyn Axundovun məktubu ailəsinə çatdırılıb. Bu barədə "Modern.az"a əsir hərbçinin anası Şəlalə Axundova məlumat verib. Onun sözlərinə görə, məktub BQXK nümayəndələri tərəfindən təqdim olunub. Məktubda "Salam anam.**

Mənəm Hüsü. Necəsən, anam? Vəziyyət necədir? İnşallah, gələcəyəm, anam. Gözlə. Özünə yaxşı bax. Nə olar məktub yaz mənə", qeyd edilib. Bu yaxınlarda BQXK nümayəndələri Ermənistanda əsir götürülən Azərbaycan Ordusunun əsgərlərinə baş çəkiblər. İrəvanda keçirilən görüş zamanı hərbçilərə ailələri ilə Qızıl Xaç Məktubu vasitəsilə əlaqə yaratmaq imkanı verilib. "Mandatına uyğun olaraq, BQXK başçəkmələr zamanı saxlanılan şəxslərlə rəftarı və saxlanma şəraitini qiymətləndirir, onların ailələri ilə əlaqələrini bərpa etmək və ya davam etdirmək üçün şərait yaradır. BQXK-nin prosedurlarına uyğun olaraq, başçəkmələrlə bağlı müşahidələr və tövsiyələr yalnız saxlayan tərəflə paylaşılır", - BQXK-nin yaydığı məlumatda deyilir. Qeyd edək ki, Naxçıvanda xidmətdə olan 2004-cü il təvəllüdlü Bəbirov Aqşin Qabil oğlu və 2003-cü il təvəllüdlü Axundov Hüseyn Əhliman oğlu yolu azaraq Ermənistan ərazisinə keçərkən əsir götürülüb və onlara qarşı saxta ittihamlarla cinayət işi açılıb.

**Beynəlxalq İnsan Hüquqları Cəmiyyəti Azərbaycan Milli Bölməsinin rəhbəri Səadət Bənənyarlı "Şərq"ə açıqlamasında qeyd etdi ki, əsgərlərimizə açılan cinayət işi saxta və əsassızdır:**

- Biz Ermənistan dövlətinin əsir, girov götürdükləri şəxslərə qarşı qondarma, saxta ittihamlarla cinayət işi açması "təcrübəsi"ylə tanışıq. Vaxtilə Şahbaz Quliyev və Dilqəm Əsgərova qarşı da bu cür caxta ittihamlarla cinayət işi açılmışdı. Halbuki onlar Azərbaycanın suveren ərazisi olan Kəlbəcərdə erməni separatçıları tərəfindən girov götürülmüşdü. İllərlə onları həbsxanada qanunsuz olaraq saxladılar. İndi də iki əsgərimizə qarşı saxta ittihamlar irəli sürüblər. Lakin məlumdur ki, əsgərlər sadəcə yolu azaraq Ermənistan ərazisinə keçiblər. Onlar müharibə şəraitində, döyüş əməliyyatları getməyən bir vaxtda səhvən başqa dövlətin ərazisinə keçiblər. Amma ermənilər yenə öz xislətlərini göstərir. Əsir götürdükləri əsgərlərimizlə qeyri-insani şəkildə davranır, əzab, işgəncə verirlər. Üstəlik də saxta cinayət işi açırlar. Onu deyə bilərəm ki, bu məsələ Azərbaycan dövlətinin diqqətindədir, əsirlərin geri alınmasıyla bağlı dövlət səviyyəsində iş gedir. Eyni zamanda biz vətəndaş cəmiyyəti nümayəndələri də bu məsələni daim gündəmdə saxlayırıq, beynəlxalq insan hüquqları təşkilatları ilə təmasdayıq. Beynəlxalq ictimaiyyət, dünya dövlətləri də bilsin ki, Azərbaycan vətəndaşları harada olursa-olsun, sahibsiz deyillər. Məsələ tezliklə həll olunacaq. Əsgərlərimiz əsirlikdən azad ediləcəklər.

**S.Bənənyarlı ermənilər tərəfindən əsir götürülmüş Azərbaycan Ordusunun əsgəri Hüseyn Axundovun anasına yazdığı məktuba da toxundu:**

- Məktubdan da hiss olunur ki, əsgərimiz sıxıntı içindədir. O, yaşadığını yaşayıb artıq. Təbii ki, sıxılır, əzab çəkir. Erməni hərbçilərinin onunla necə davrandığını hamımız gördük. Anası, doğmaları da görüb. Təsəvvür edin, bu, bir ana üçün, doğmaları üçün necə böyük əzabdır. Təəssüf ki, Beynəlxalq Qırmızı Xaç Komitəsi mandatına uyğun olaraq əsirlərlə bağlı məlumatları yalnız əsir saxlandığı tərəfə verir. Və yaxın qohumlarına məktub yazmaq imkanı tanıyır. İnformasiyalar bizə vermir, bizimlə bölüşmürlər. Ümid edək ki, əsgərlərimiz tezliklə azad olunsun.

**Məlahət Rzayeva**

# Öncə Bakının Baş planı hazırlanmalıdır

## Yeni tikinti normalarının tətbiqindən sonra əmlak bazarında qiymət artımı qaçılmaz olacaq

**Azərbaycanda yeni tikinti normaları hazırlanacaq. Normaların hazırlanmasında respublikanın aparıcı mütəxəssisləri iştirak edəcəklər.**

Bu barədə "Oxu.az"a danışan Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin tabeliyində fəaliyyət göstərən Azərbaycan İnşaat və Memarlıq Elmi-Tədqiqat İnstitutunun direktoru Abdı Qarayev hazırlıq prosesinin 2024-cü ildə başlayacağını deyib.Tikinti normalarının sonuncu dəfə 2010-ci ildə hazırlanıb qəbul edildiyini xatırladan İnstitut direktoru deyib ki, Türkiyədə baş verən dəhşətli zəlzələdən sonra Azərbaycanda da tikinti normalarının yenilənməsinin vacibliyi qeyd edilib: "Normalar hazırlanarkən Avropa, Çin və Yaponiya təcrübəsi müqayisəli təhlil ediləcək, Azərbaycan üçün müvafiq qaydalar müəyyənləşdiriləcək. Yeni normalarda tikintiyə tələblərin artırılması və sərtləşdirilməsi müzakirə olunur. Kəskin yeniliklər ola bilər. İstənilən halda tikintiyə tələblərin artırılması qaçılmazdır".



*"Ən vacibi isə metro xətlərinin üzərində bina tikintisinə qadağa qoyulmalıdır. Bakıda əksər metroların üzərində çoxmərtəbəli yaşayış binaları tikilib. Təəssüf ki, hər dəfə qatarların hərəkəti ilə binalarda kiçik ballıq zəlzələlər hiss olunur"*

**Daşınmaz Əmlak eksperti Elnur Fərzəliyev isə "Şərq"ə açıqlamasında deyib ki, 1997-ci ildən bu günə qədər 2000-dən artıq çoxmərtəbəli yaşayış binaları tikilərək vətəndaşlara təhvil verilib:** "Sözsüz ki, binaların artması insanların mənzil problemini həll edir və ölkə iqtisadiyyatını ayaqda tutur. Tikinti materiallarının istehsalı, satışı, usta və fəhlələrin işlə təmini və bu kimi sahələr məhz bina tikintisi hesabına gəlir əldə edir. Amma təəssüfləndirici haldır ki, bu illər ərzində tikilən binaların əksəriyyəti pərakəndə və tikinti normativlərindən kənar tikilib. Elə binalar var ki, bir- birinə çox yaxındır, eləsi var nə həyəti, nə də parklanma yeri var. Halbuki şəhərsalma qaydalarına görə, ara məsafəsi binanın hündürlüyünün 1,5 əmsalında olmalıdır. Yəni binanın hündürlüyü 15 metrdirsə, o, 1,5-ə vurulub, qonşu bina ilə ara məsafə qoyulmalıdır. İndi 16-20 mərtəbəli binalar var ki, onların hündürlüyü 50-50 metrdən çoxdur. Şəhərdə bəzi ərazilər var ki, 3-4 belə binanı 7-8 metr ara ilə tikiblər. Təsəvvür edin ki, fövqəladə vəziyyətdə o binalardan 1-2-si uçur və bu, digər binalara da potensial təhlükədir. Binaların həyətyanı sahələri, əsas yola çıxışı olmalıdır. Yəni binalar bir-birinə yaxın tikilərkən bütün bu hallar nəzərə alınmalıdır. Mütləq avtoparkları, uşaqlar üçün oyun yerləri olmalıdır".

Hazırda paytaxtda minlərlə istismar müddətini başa vurmuş köhnə yaşayış binalarının olduğunu xatırladan əmlak eksperti deyib ki, artıq böyük əksəriyyəti qəzalı binalar kimi qeydiyyata alınıb. Və yaxın illər ərzində onlar sökülüb yeni binalarla əvəzlənməlidir: "Köhnə binaların söküntüsü dövlət siyasəti olsa da, bu prosesi özəl tikinti şirkətləri, yəni MTK-lar icra edir. Bu baxımdan hazırlanacaq yeni tikinti normalarında şərtlərin daha da sadələşdirilməsinin, lakin tikintiyə nəzarətin gücləndirilməsini məqsədəuyğun hesab edirəm. Hər şeydən öncə Bakının Baş planı hazırlanmalı və tikinti də ona uyğun aparılmalıdır".

**E.Fərzəliyevin sözlərinə görə, yeni tikinti normalarının tətbiqindən sonra əmlak bazarında qiymət artımı qaçılmaz olacaq:** "Bu, hər zaman belədir. Tikinti ilə bağlı hər hansı bir tələb, hansısa bir qanuna dəyişiklik edilsə, mütləq bazarda bahalaşma olur. Orta və minimal əməkhaqqı alan insanların mənzil sahibi olması artıq mümkünsüzdür. Qiymətlər fantastik dərəcədə bahadır. Mərkəz və mərkəzə yaxın ərazilərdə təmirsiz mənzillərin kvadrat metri 2000 manatdan başlayır və daha baha qiymətlərə təkif olunur. Bu baxımdan şərtlərin ağırlaşdırılmasından daha çox keytiyyətə nəzarət gücləndirilməlidir. Tikinti şirkətləri üçün müəyyən güzəştlər tətbiq olunmalı, onlar vergilərdən azad edilməlidir ki, MTK-lar köhnə binaları söküb yerində çoxmərtəbəli binalar tikməkdə maraqlı olsunlar".

**E.Fərzəliyev hesab edir ki, zəlzələyə davamlı binalar tikmək üçün Yaponiyanın təcrübəsini öyrənmək daha etibarlıdır:** "Bu ölkədə tez-tez dağıdıcı gücə sahib zəlzələlər olur və buna rəğmən binalar sağlam qalır. Zəlzələyə davamlı bina yaratmaq üçün binanın zəmini çox vacibdir. Zəlzələyə davamlı bina keyfiyyətli materiallardan ibarətdir. İlk növbədə zəlzələyə davamlı bina üçün nasazlıq xəttinin müəyyən edilməsi çox vacibdir. Evin birbaşa nasazlıq xəttinin üzərində tikilməsi yanlış davranış sayılır. Eyni zamanda evin tikiləcəyi nöqtə də bu məqamda önəmlidir. Yaponiyada evlər xüsusi texnologiya ilə tikilir. Orada tikililərə qoyulan seysmik tələblər həddindən artıq sərtdir. Yaponlar binaları zəlzələ dalğasının təsirinə uyğun olaraq, elə konstruksiya üzrə qururlar ki, təkanlar zamanı dağılmasın. Daha dəqiq desək, relslərin üzərində. Bu sistem zəlzələ zamanı binaların yer qabığından asılı olmayaraq hərəkətinə şərait yaradır.

Amma Bakı həm də küləklər şəhəridir. Möhkəm əsən küləyin özü də hündür binaların yuxarı mərtəbələrində kiçik ballıq bir zəlzələ rolunu oynayır. Odur ki, yeni normativlərdə küləyin təsiri, torpağın seysmoloji təyinatı da öyrənilməlidir. Ən vacibi isə metro xətlərinin üzərində bina tikintisinə qadağa qoyulmalıdır. Bakıda əksər metroların üzərində çoxmərtəbəli yaşayış binaları tikilib. Təəssüf ki, hər dəfə qatarların hərəkəti ilə binalarda kiçik ballıq zəlzələlər hiss olunur. Bu cür xırda tərpənişlər isə zamanla binaların istismar müddətini sürətləndirir və binaları qəzalı vəziyyətə gətirib çıxarır".

**Şəymən Bayramova**

# Himayədar ailələrə aylıq müavinətlər ödəniləcək

## Hər ay yoxlama olmalıdır ki, ayrılan vəsait himayəyə götürülmüş uşağa həqiqətən xərclənirmi

**”Sosial müavinətlər haqqında” qanuna təklif edilən düzəlişlər Milli Məclisin Əmək və sosial siyasət komitəsində müzakirə olunaraq plenar iclasa təklif olunub. Bu barədə açıqlama verən millət vəkili Vüqar Bayramov bildirib ki, dəyişikliklərə əsasən, himayədar ailəyə verilmiş uşağın, o cümlədən 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşağın tərbiyə edilməsinə görə aylıq müavinətlər ödəniləcək: ”Bu müavinət himayədar valideynlərlə dövlət qurumu arasında uşağın, o cümlədən 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşağın himayədar ailəyə verilməsinə dair müqavilə bağlanıldıqdan sonra ödəniləcək.**

Müavinətin məbləği dəyişikliklərin qəbulundan sonra müəyyənləşəcək. Digər dəyişikliyə əsasən, həmin uşaqlara mövsümi geyim alınması üçün birdəfəlik müavinətlər də ödəniləcək. Bu zaman da oxşar müqavilənin bağlanması əsas şərtdir. Bu müavinət müqavilə bağlanıldıqdan sonra ildə 4 dəfə (mart, iyun, sentyabr və dekabr aylarında) ödənilməklə, həmin müqavilənin qüvvədə olduğu müddətə təyin edilir”. Deputat qeyd edib ki, dəyişikliklərin məqsədi uşaqları himayəyə götürən ailələrin sosial vəziyyətini daha da yaxşılaşdırmaq və kimsəsiz uşaqların ailələrdə böyüməsini stimullaşdırmaqdır.



**Sosioloq Elçin Bayramlı ”Şərq”ə açıqlamasında qeyd etdi ki, aylıq, eləcə də birdəfəlik müavinətlərin ödənilməsi müsbətdir. Lakin burada bir sıra diqqət edilməli məqamlar var:**

- İlk növbədə müavinətlərin xərclənməsində şəffaflıq təmin edilməlidir. Müavinətlərin aidiyyəti üzrə xərclənməsinə ciddi nəzarət olmalıdır. Bu iş ya Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində konkret hansısa şöbəyə, yaxud hər rayon üzrə icra hakimiyyətləri nəzdindəki xüsusi şöbələrə tapşırılmalıdır. Əməkdaşlar hər ay yoxlamalıdır ki, ayrılan vəsait himayəyə götürülmüş uşağa həqiqətənmi xərclənir və nəyə xərclənir; geyiməmi, qidalanmayamı, məktəb ləvazimatlarına, təhsiləmi? Ərazi üzrə tibb müəssisəsiylə əlaqə saxlanmalıdır ki,uşaq vaxtlı-vaxtında tibbi müayinədən keçirilirmi, müalicə lazımdırsa, edilirmi və sair. Bu işə məsul əməkdaşlar himayəyə götürülmüş uşağın yaşadığı mənzilə qəfil səfərlər etməlidir. Baxmalıdırlar ki, uşağın qidası necədir, özünü necə hiss edir, ona basqı varmı, yoxsa mehriban ortamda böyüyür. Bu məsələdə ciddi yanaşılmalı məqamlar çoxdur. Bir sıra ölkələrdə himayədar ailədən ödənilən vəsaitlərin xərclənməsi üzrə ödəniş çekləri tələb olunur. Bununla vəsaitin hara xərcləndiyini müəyyənləşdirirlər. Bizdə də belə qayda tətbiq edilməlidir. Və ödəniş çekləri aidiyyəti quruma təqdim olunmalıdır. Ya fərdi, ya da elektron qaydada. Uşaqlardan sorğu vasitəsilə də yaşayışları haqqında bilgi əldə etmək olar. Amma nəzərə alaq ki, uşaq azyaşlı, fikrini ifadə edə biləcək yaşda olmaya da bilər. Yaxud müəyyən fiziki qüsurlu uşaqdan suallara dolğun cavab almaq mümkün olmaya da bilər. Ona görə də himayədar ailələrə ciddi nəzarət önəmlidir. Nəzarət olmalıdır ki, dövlətin ayırdığı vəsait itib-batmasın, ünvanlı olsun.

**E.Bayramlı ödəniləcək müavinətin miqdarı məsələsinə də toxundu:**

- Hesab edirəm ki, müavinətlərin miqdarı yaşayış minimumundan aşağı olmamalı, hətta yüksək olmalıdır. Ölkədə yaşayış minimumu 246 manat təyin edilib. Hərçənd, bu, istehlak səbətini təşkil edən məhsulların hazırda müşahidə olunan qiymətləriylə tərsmütənasibdir. Bütün hallarda himayədar ailələrə ayrılacaq müavinətlərin miqdarı, heç olmasa, bu civarda təyin edilməlidir. Himayədar ailələrin də tipi müəyyənləşməlidir. Bilinməlidir, himayəyə götürmə məcburidir, yoxsa könüllü. Məcburi deyiləndə belə anlaşılmasın ki, kimisə buna məcbur edirlər, uşaq himayəyə götürsün. Bəzən elə hallar olur ki, valideynlərini itirmiş uşaq yaxın qohumlar tərəfindən himayəyə alınır. Baba, nənə, digər yaxın qohumlar uşağa sahib çıxırlar, başqa ailəyə verilməsinə razı olmurlar. Bunu vəziyyət tələb edir. Bir də var, könüllü şəkildə kimlərsə uşaq övladlığa götürmək üçün müraciət edir. Hər iki halda ailələrin maddi durumu dəqiqləşməli və müavinətlər buna görə təyin edilməlidir. Hətta ola bilər, himayədar ailənin uşağı himayəyə götürdüyü zaman maddi vəziyyəti yaxşı olsun, lakin sonra pisləşsin. Dövlət orqanları belə fərqlilikləri də nəzərı almalı və mövcud vəziyyətə uyğun davranmalıdırlar.

**Məlahət Rzayeva**



# Nizam-intizam tamam pozulub

## Şagirdlərin özünü məktəbdə qumar oynayacaq qədər sərbəst, rahat hiss etməyi dəhşətlidir

**”Son 3 ildə məktəblərə nəzarət, təlim-tədris prosesi, şagirdlərlə davranış qaydaları çox ciddi şəkildə arxa plana atılıb”.**

*Bunu ”Şərq”ə təhsil eksperti Kamran Əsədov sosial şəbəkələrdə şagirdlərin oyun kartları ilə qumar oynaması barədə videogörüntülərin yayılmasından danışarkən deyib. Onun sözlərinə görə, məktəblərə nəzarət edilmir:* ”Hər gün şagirdlərin iştirakı ilə məktəblərdə xoşagəlməz hadisələri müşahidə edirik. Bu, onu göstərir ki, Elm və Təhsil Nazirliyi, Regional Təhsil İdarələri orta təhsil müəssisələrinə ciddi nəzarət edə bilmirlər.

Şagirdlərin özünü məktəbdə qumar oynayacaq qədər sərbəst, rahat hiss etməyi dəhşətlidir. Ümumiyyətlə, nəinki təhsil ocağı, heç müəssisəyə yaxın məsafədə belə mərc oyunlarına icazə verilməli deyil.

Çox təəssüf ki, müəssisə rəhbəri, regional təhsil idarələri məktəblərdə monitorinqlər aparmırlar. Bu gün sözügedən qurumların başı orta təhsil müəssisələrindən maddi qazanc mənbəyi kimi istifadə etməyə qarışıb. Onların fəaliyyətini görə bilmirik.

Bu, çox təəssüfləndirici haldır. Nizam-intizam qaydalarına əsasən, bu şagirdlərə ciddi şəkildə töhmət verilməlidir. Həmin məktəbin direktoru, regional təhsil idarəsinin rəhbəri, Elm və Təhsil Nazirliyindən həmin bölgə üzrə kuratorlar vəzifəsindən azad edilməlidir.

Hazırda orta təhsil müəssisələrindəki mövcud özbaşınalıqlar ciddi nəzarətin olmaması, şəxslərin vəzifəsini düzgün yerinə yetirməməsi ilə sıx bağlıdır. Məktəblər öz öhdəliklərini birmənalı şəkildə icra etmirlər. Bu gün orta təhsil müəssisələri kriminal məkana çevrilib”.

*Qeyd edək ki, sosial şəbəkələrdə Mingəçevir şəhəri təbiət, riyaziyyat, humanitar təmayüllü liseydə şagirdlərin oyun kartları ilə qumar oynaması ilə bağlı videogörüntülər yayılıb. Görüntülərdə yuxarı sinif şagirdlərinin dərs saatlarında sinif otağında qumar oynadıqları əks olunub. Liseyin direktoru Aidə İsmayılova hadisənin liseydə baş verdiyini təsdiqləyib.*

**Sücayət Mehti**



# Aftandil İsrafilovun vəziyyəti ağır stabildir

**Xalq artisti Aftandil İsrafilovun sağlıq durumunda bir dəyişiklik yoxdur.**

Bu barədə ”Şərq”ə onun qızı Həcər İsrafilova məlumat verib. O, atasının və əmisi Ənuş İsrafilovun səhhətindən danışıb: ”Aftandil müəllimin vəziyyəti ağır stabildir. Ona görə xəstəxanaya gəlmişik. Heç bir şey dəyişməyib. Əmimdə başqa xəstəlikdir. Əməliyyat olunub. İndi danışa bilmirəm, professorların yanındayam, söhbət edirik”.

# "Yaxşıyam"

## Ramiz Məlik sükutu pozdu



**Uzun müddətdir ağır xəstəlikdən əziyyət çəkən Xalq artisti Ramiz Məlik səhhətindən danışıb.**

Bu barədə sənətçi ”Şərq”ə açıqlama verib.

O bildirib ki, hazırda özünü yaxşı hiss edir: ”Yaxşıyam. Vəssalam. Müalicəm davam edir. Normaldır. Bitdi. Həm evdə, həm də xəstəxanada müalicə olunuram”.

# Oqtay Əliyevin məzar daşı hazırlanır



**Bir ay əvvəl avtomobil qəzasında həlak olan ”SOY prodakşn”ın rəhbəri Oqtay Əliyevin məzar daşı hazırlanır.**

”Şərq” xəbər verir ki, prodüserin qəbirüstü abidəsinin görüntüləri sosial şəbəkələrdə paylaşılıb.

Kadrlarda rəssamın mərhum O.Əliyevin şəklini çəkdiyi anlar yer alıb.

# Roza "göz qaytarır"?

## ”Koftam 8, ətəyim 16 manatdır”



**Müğənni Roza Zərgərlinin növbəti açıqlaması maraqla qarşılanıb.**

”Şərq” xəbər verir ki, bununla bağlı o, ”Bizimləsən” verilişində danışıb. Geyimlərdən söz açan Roza efir üçün seçdiyi paltarların qiymətini açıqlayıb: ”Zövqün pula aidiyyəti yoxdur, koftam 8, ətəyim 16 manatdır. Bura müğənni kimi yox, ekspert kimi gəlmişəm”.

**Hazırladı: Samirə**

# İntensiv yağışlar və dolu...

## Bu il kənd təsərrüfatı sahələri ciddi sınaq qarşısındadır




**Bir neçə gün əvvəl müşahidə olunan güclü yağış və dolu Cəlilabad rayonunda çiyələk sahələrinə zərər vurub.**

Yerli sahibkarların məlumatuna görə, havanın qeyri-sabit keçməsi çiyələk kollarını və meyvələrini zədələyib. Buna görə də çiyələk sahələrini sığorta etdirməyən bəzi sahibkarlar çətin duruma düşüblər. Fermerlər bildiriblər ki, güclü külək və dolu nəticəsində artıq sahələrdə meyvələr sürətlə çürüməyə başlayıb.

Qeyd edilib ki, təbiət hadisəsi nəticəsində kolların üzərində həm yetişmiş, həm də kal meyvələr məhv olublar. İndiyədək mövsüm zamanı əlverişsiz hava şəraiti ilə qarşılaşmadıqlarını söyləyən sahibkarlar əkin sahələrini sığorta etdirmədiklərini bildiriblər. Ona görə də bu mövsümün zərərlə başa çatacağı ehtimal edilir.

Məsələ ilə bağlı Cəlilabad Rayon Dövlət Aqrar Mərkəzindən bildirilib ki, baş verən qasırğa və yağan dolu çiyələk təsərrüfatına ciddi ziyan verib.

Qeyd edilib ki, yetişmiş məhsul kol üzərində çürüyərək yerə tökülür. Məlumatda bunun çiyələyin qiymətinə təsir göstərəcəyi vurğulanıb.

Maraqlıdır, qeyri-sabit hava şəraiti kənd təsərrüfatının ayrı-ayrı sahələrinə necə təsir göstərir?

**Kənd Təsərrüfatı üzrə ekspert, iqtisadçı Cəfər İbrahimli ”Şərq”ə açıqlamasında deyib ki, kənd təsərrüfatının inkişafı bir növ iqlimdən asılıdır.** Bu səbəbdən intensiv yağışlar, xüsusən də dolu mövsümi məhsulların keyfiyyətinə, həm də istehsal həcminə mənfi təsir edəcək. Əslində təbiət hadisələrinin kənd təsərrüfatına ziyanı həmişə olub. Ən inkişaf etmiş ölkələrdə də bu hallar olur. Xüsusən də ölkəmizdə hər ilin bu dövrü, yəni aprel-may aylarında intensiv yağışlar və dolu yağır. Əgər yağışlar uzunmüddətli intensiv xarakter daşıyarsa, bu hal bəzi bitkilərə zərər verə bilər.

Lakin bu dövrdə yağan yağışın bir çox kənd təsərrüfatı bitkilərinə xeyri var. Belə yağışların yağması torpaqda rütubəti artırır və nəticədə əkinçilik məhsulları yaxşı inkişaf edir: ”Hazırda yazın əkinlərinin mövsümüdür. Qarğıdalı, günəbaxan, pambıq kimi bitkilər üçün indiki yağışlar xeyirlidir. Taxılçılıq üçün də bu yağışlar əhəmiyyətli dərəcədə xeyirlidir. Bağçılıq təsərrüfatlarında erkən oyanma mərhələsində olan meyvələr üçün intensiv yağışlar zərərlidir. Mayalanma prosesində yağan yağış məhsuldarlığın aşağı düşməsinə səbəb olur”.

Ekspertin sözlərinə görə, kənd təsərrüfatı üçün ən riskli faktor dolu yağmasıdır və bu təbiət hadisəsi çox təhlükəlidir. Cəlilabadda çiyələk sahələrinə ziyan dəyməsi də birbaşa dolu ilə əlaqədardır. Dolu bütün bitkilər üçün təhlükəli təbiət hadisəsidir. Amma nəzərə alaq ki, Azərbaycanın bir çox ərazilərində çiyələk sahələri var və dağlıq ərazilərdə daha gec yetişir. Ona görə də çiyələklə bağlı bir qıtlıq yaranacağını güman etmirəm. Cəlilabadda məhsuldarlıq aşağı düşsə də, digər ərazilərdəki məhsuldarlıq bu ziyanı kompensasiya edə bilər”.

”Qiymət artımına gəldikdə isə indiki mövsüm elədir ki, hələ kənd təsərrüfatı məhsullarının kütləvi istehsalı başlamayıb və onlar bazara çıxmayıb. Sadəcə satıcılar yaranmış vəziyyətdən istifadə edirlər”,- deyə ekspert əlavə edib.

**Şəymən**



# Ordumuzun səmadakı "gözü"

## Rəsmi məlumatlara inanmamağa heç bir səbəb yoxdur

**”Azərbaycanın məlum qəzaya qədər fəzada 3 peyki olub”. Bunu ”Şərq”ə İKT üzrə mütəxəssis Fərhad Mirəliyev ”Azersky”nin çökməsinə münasibət bildirərkən deyib.**

Onun sözlərinə görə, təəssüf ki, ”Azərsky” qeyd edildiyi kimi, meteroitlə toqquşub və qəza keçirib: ”Belə qəzalar çox nadir hallarda baş verir, amma praktiki olaraq, istisna edilmir. ”Azersky”nin istismar müddətinə 1 il qalmışdı. Geopolitik gərginliyin vüsət aldığı bir dönəmdə ”Azersky”nin qəzaya uğraması xəbəri bir çoxlarında rəsmi açıqlamaya inamsızlıq yaratdı.

Xüsusən də şübhə doğuran amillər ondan ibarət idi ki, ”Azersky” peyki digər pekylərimizdən fərqli olaraq, müharibə dönəmində aktiv istifadə edilirdi.

Peykdən alınan məlumatlar verilən qərarlara müsbət təsir göstərməklə ordumuzun bir növ səmadakı ”gözü” hesab olunurdu.

Digər tərəfdən də peykin proqram və aparat təminatının Fransaya məxsus olması bu qəzanın təxribat xarakterli, xarici qüvvələrin ”əli”nin mövcudluğu kimi versiyaların yaranmasına gətirib çıxarır.

Rəsmi məlumatlara inanmamağa heç bir səbəb yoxdur. Ən azından təxribat törədənlər bunu 44 günlük müharibə vaxtı edə bilərdilər”.

**Sücayət Mehti**

**Elanlar**

Bakı Dövlət Rabitə və Nəqliyyat Kolleci tərəfindən Əliyev Kəlaməddin Ziyəddin oğluna verilmiş Tələbə bileti № 23672 itdiyi üçün etibarsız sayılır.

Mehdiyeva Gülmira Yunis qızına məxsus Xırdalan şəhəri, H.Əliyev prospekti 167 ünvanda ”AAAF-park” yaşayış massivinin 26 saylı küçə, bina 1, 16 saylı mənzilin müqaviləsi itdiyi üçün etibarsız sayılır.

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Sücayət Mehti

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan Nəşriyyatı” MMC-nin mətbəəsində çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi:
“Muğanbank” ASC baş ofis
Kod: 506162
VÖEN: 1400122681
M/H: AZ41NABZ01350100000000018944
S.W.İ.F.T.: MUGAAZ22
AZM hesab nömrəsi: AZ76MUGA400603803000225AZM00
VÖEN 1300414651 İndeks: 0330

Tirajı: 1550 Sifariş: 1045



## Kralın şokolad heykəli hazırlandı

### Heyət heykəlin ərsəyə gəlməsinə 130 saat sərf edib

**Böyük Britaniya Birləşmiş Krallığının hakimi, kral Çarlzın şokoladdan heykəli düzəldilib. Heykəli heykəltaraşlarla şokolad ustaları birlikdə hazırlayıb.**

Kralın üz cizgiləri, uniforması, hətta geyimi üzərindəki nişanlar da heykəldə dəqiqliklə əksini tapıb. Heykəlin çəkisi 23 kiloqramdır. İngiltərədə məşhur olan şokolad ustası Jennifer Lindsey-Clarkenin rəhbərliyi altında çalışan heyət heykəlin ərsəyə gəlməsinə 4 həftə, 130 saat sərf edib. Heykəlin düzəldilməsində 17 litrdən artıq ərimiş şokoladdan və müxtəlif növ şokoladlardan istifadə edilib. Heykəldəki "kralın" həyatdakı Kral Çarlza həddindən artıq bənzəməsi diqqətlərdən yayınmayıb və heykəltaraşlar belə uğurlu işə görə alqışlanıb. Xatırladaq ki, anası kraliça Yelizabetin ölümündən sonra nəhayət ki, Britaniya taxtına çıxan Kral Çarlzın tacqoyma mərasimi may ayına təyin edilib. Mərasim mayın 6-sı "Westminster Abbey" - Londondakı Müqəddəs Pyotr Kilsəsində (abbatlıq) gerçəkləşəcək.

**Məlahət**

## Zəlzələdə həyat yoldaşını və 2 uşağını itirmişdi

### Ata 12 yaşlı qızını da öldürərək intihar edib



**Türkiyədə zəlzələdə həyat yoldaşını və 2 uşağını itirən ata 12 yaşlı qızını da öldürərək intihar edib.**

"Şərq"in məlumatına görə, Ferit Dayan zəlzələdən sağ çıxan 12 yaşlı qızı Asya İrem Dayanı bağçada oyun oynadığı üçün evə çağırıb.

Ferit Dayan çağırdığı kiçik qızının başına silahla atəş açıb. Uşaq qan içində yerə yıxılarkən, Ferit Dayan daha sonra tapança ilə başına atəş açaraq intihar edib.

Hadisə yerinə sağlamlıq qrupları və polis sövq edilib. Təcili yardım ağır yaralanan Asya İrem Dayana müdaxilə göstərib. Balaca uşaq ilk müdaxilənin ardından Besni Dövlət Xəstəxanasına, daha sonra Adıyaman Təhsil və Araşdırma Xəstəxanasına aparılıb.

Zəlzələdən sonra depressiyaya düşən və eyni zamanda psixososial dəstək alan Ferit Dayanın cənazəsi müayinələrdən sonra Besni Dövlət Xəstəxanası Morquna aparılıb.

Xəstəxanada müalicə alan Asya İrem Dayanın reanimasiya şöbəsinə aparıldığı və orada həyat mübarizəsi apardığı öyrənilib. Faktla bağlı araşdırmalar davam edir.

**Aygün Tahir**




# Bir pişik həyatını dəyişdi

### Fahriyə nənəni indi milyonlar izləyir

**Mərd Yıldız Türkiyənin Amasya bölgəsi, Taşovada ictimai birlikdə çalışır. Heyvanlarla mərhəmətli davranan, onları bəsləyən Mərd "Minnoş" adı verdiyi pişiklə fotolarını sosial mediada paylaşır, müsbət rəylər alır. Mərdin heyvanlara olan sevgisi bir gün yolunu Fahriyə nənəylə kəsişdirib. Fahriyə nənənin də onun kimi heyvansevər, aldığı cüzi təqaüdlə küçə heyvanlarını bəslədiyini gördükdə, onu ölkəyə tanıtmaq qərarına gəlib.**

"Şərq" "Milliyet.com"a istinadən Mərd Yıldızın Fahriyə nənə barədə danışdıqlarını təqdim edir. M.Yıldız Fahriyə nənəylə 2 il əvvəl tanış olub. "Ərazidə gəzişərkən bir yaşlı qadının pişikləri yemlədiyini gördüm. Bir müddət onu müşahidə etdim. Hər gün pişikləri yedirir, tumarlayır, əzizləyirdi. Ona yaxınlaşıb tanış oldum. Mehriban bir insan olduğunu gördüm. Onunla ana-bala kimi olduq, mən də ona qoşuldum, yaxınlıqdakı marketdən pişik yemləri alaraq küçədəki pişikləri yemləyə başladıq. Bir gün də pişikləri yemlədiyi zaman videosunu çəkdim, sonra paylaşdım. 300 izləyicim vardı. Bu videonu paylaşdıqdan sonra isə bir günün içində izləyicilərimin sayı 300-350 mini ötdü. İzləyici sayı sürətlə artırdı. Bu durum məni həyəcanlandırdı. Getdikcə izləyicilərim daha da artdı. 1-2 milyona çatdı. Bu anda sosial media hesabımda 11 milyon aktiv izləyicim var", deyən Mərd Yıldız Fahriyə nənənin yalnız yaşadığını, küçə heyvanlarına meyl saldığını söyləyib. Fahriyə nənənin həyat yoldaşı vəfat etdikdən sonra tənha qalıb. Günün böyük hissəsini mənzilində və bağçada bəslədiyi pişiklərə həsr edir. Onlara "Ramuk", "Mərcan", "Boncuk" adları verib. Amma Mərdin çəkdiyi video sosial mediada yayıldıqdan sonra Fahriyə nənənin də həyatı dəyişib. Videoları izləyən bir çox insan Mərd vasitəsilə Fahriyə nənəylə əlaqə qurmaq, pişik yemi almaqda nənəyə yardım etmək istədiklərini bildiriblər. Mərd isə onlara ictimai işçi olduğunu və yardım toplamaq hüququnun olmadığını deyib. Nənəyə yardım etmək istəyənləri Taşova məhəlləsinə dəvət edib. Bundan sonra Fahriyə nənənin ziyarətçiləri gündən-günə artmağa başlayıb. Ona hər cür yardım gətirib, kömək etməyə başlayıblar. Hətta İstanbuldan bir vəkil ailəsi Taşovaya gələrək Fahriyə nənə hədiyyələr gətiriblər, evində, bağçasında təmizlik işləri görüblər. "Bu durum məni çox xoşbəxt edir. Fahriyə nənə az miqdarda təqaüdü ilə dolanır. Kimsədən indiyədək yardım istəməyib. İnsanlar onun yanına gəlib halını





soruşursa, bu onu xoşbəxt edir. Fahriyə nənənin maddi yardıma deyil, səmimiyyətə, mənəvi dayağa, sevgiyə ehtiyacı var. Gələnlərin onunla 5 dəqiqə söhbət etməsi yetərlidir ki, nənənin üzü gülsün".

**Məlahət Rzayeva**

## Ancelina Coli oğlu ilə Ağ Evdə ziyafətə qatılıb



**Hollivud ulduzu Ancelina Coli keçmiş həyat yoldaşı Bred Pittlə övladlığa götürdüyü oğulları Maddoksla Ağ Evdə təşkil olunan ziyafətə qatılıb.**

**Axşam.az xəbər verir ki, ABŞ Prezidenti Co Bayden Cənubi Koreya lideri Yoon Suk-yeolla həyat yoldaşı Kim Keon Heeni ölkələr arasında birliyin 70-ci ildönümünü qeyd etmək üçün qəbul edib.**

**Tədbirdə obyektivlərə Ancelina ilə oğlu da tuş gəlib.**

***Qeyd edək ki, Ancelina ilə Bredin ümumilikdə altı övladı var; bioloji - Şilo, Noks və Vivyen, övladlığa götürülmüş - Maddoks, Paks və Zahara. Maddoks Cənubi Koreyada təhsilini başa vurub.***

## Qizarmış kartof gənclərin beynini pozur

### Elmi araşdırmaya 140 min müxtəlif yaşlı insan cəlb olunub



**Gənclərin və uşaqların sevimli qidası olan kartof -free və az qala hər gün yedikləri ləzzətli kartof qızartması depressiya yaradır.**

**"Medicina" xəbər verir ki, Çinin Xancjou universitetinin bir qrup alimi qızartma yemək, xüsusən qızarmış kartofun təşviş pozuntusu və depressiyanı artırdığını sübut edib.**

**Elmi araşdırmaya 140 min müxtəlif yaşlı insan cəlb olunub. Tədqiqat 11 il davam edib.**

**Nəticədə alimlər iştirakçılar arasında psixi durumu pozulmuş və depressiyada olanları təcrid ediblər.**

**Yağlı, qızartma çox yeyən 8234 nəfərdə ilk 3 ildə təşviş, həyəcan, 12 735 nəfərdə isə depressiya diaqnozu aşkar edilib.**

**Belə ki, dağ yağda qızardılmış duzlu kartof təşviş və depressiyanı 12% artırır. Xüsusilə gənc oğlan və kişilərə bu təsir daha çoxdur.**

**Alimlər bildirir ki, hətta qızarmış ət belə kartofdan daha az zərərlidir.**



## Saxta MİT-çilər professoru aldatdılar

### 1979 ədəd "cümhuriyyət altın"ı və 400 min avro yoxa çıxdı

**Türkiyənin Bursa bölgəsində bir professorun bankdakı 1979 ədəd "cümhuriyyət altın"ı və 400 min avro pulu saxtakarların əlinə keçib.**



"Milliyet.com.tr" xəbər verir ki, özünü Milli istihbarat əməkdaşı kimi təqdim edən bir nəfər 77 yaşlı professora zəng edərək "banklardakı saxtakarları yaxalaya bilməmiz üçün bizə yardımınız lazımdır" deyib. Professor da bunu vətəndaşlıq vəzifəsi hesab edərək "əlbəttə, sizə yardım etməyə hazıram", söyləyib. Saxta MİT-çi "o zaman banklarda saxladığınız mal və pullar haqqında bizə məlumat verin", deyib. Ertəsi gün bankdakı pullarını çıxaran professor "mit"çinin dediyi yerə gəlib və çantada gətirdiyi pulları şəxsə təslim edib. Pulları alan adam "bu barədə kimsəyə danışma. Əməliyyat davam edir" deyərək yenə professoru aldadıb. Sonralar da onunla bir neçə dəfə əlaqə saxlayaraq "sənin verdiyin qızıllar yoxlanır. Əməliyyat sona çatmaq üzrədir. Votsap nömrəni açıq saxla. Danışıqlarını qeydə alacağıq", təlimatı veriblər. Bu vəziyyət bir müddət davam edib. Bir gün professorun evinə qonaq gələn qardaşı baş verənlərdən şübhələnib və polisə xəbər verib. Polislər mənzilə gəlib sorğu-sual etdikdə, nəhayət, kişi aldadıldığını anlayıb. Polis əməliyyat keçirib, ərazidəki, parkdakı müşahidə kameralarına baxılıb və aralarında bir qadının da olduğu şübhəli bilinən 6 nəfəri yaxalayıb. Professorun "cümhuriyyət altın"ları isə tapılmayıb.

**Məlahət**

## Min dərdin dərmanıdır

### Yaşıl alça, bağ toxumasını gücləndirir, dieta əsnasında çəki atmağınıza kömək edir



**Mövsümün əsas meyvəsi alçadır. Bütün ili alça yemək üçün bu mövsümü gözləyənlər kimi, alçaya lazımlı münasibəti göstərməyənlər də var.**

"Şərq" qəzeti olaraq sizə yaşıl alça yeməyiniz üçün 10 səbəbi təqdim edirik: "Yaşıl alça, bağ toxumasını gücləndirir, dieta əsnasında çəki atmağınıza kömək edir. Tərkibində yüksək miqdarda antioksidan var. İmmunitet sisteminin güclənməsinə kömək edir və stressə qarşı sakitləşdirici bir təsir yaradır. Ağız sağlamlığı üçün, xüsusilə, diş ətlərinin güclənməsinə kömək edir. Revmatizmanı yaxşılaşdırır.

Dəmir çatışmazlığı yaşayanlar və anemiya xəstələri üçün təsirlidir.

Qəbizliyin qarşısını alır, aciyər xərçəngi, xroniki ağciyər xəstəliklərini, astma və soyuqdəymə kimi xəstəliklər üçün problemlərin həll edilməsinə kömək edir.

**Şəymən**

## Körpəsini bıçaqla öldürüb, ciyərini yedi

### Qonşular hər şeyi gördülər



**Keniyada körpəsini vəhşicəsinə qətlə yetirən ananın etdikləri dünyanı şoka salıb. "Şərq" xarici mediaya istinadən xəbər verir ki, ətrafdakı qonşular sözügedən hadisənin şahidi olublar.**

Yerli medianın məlumatına görə, dəhşətli olayı pəncərədən izləyən qonşular 24 yaşlı qadının himn oxuyarkən kiçik qızına çoxsaylı bıçaq zərbələri vurduğunu görüblər.

Qonşular qızı xilas etmək üçün vaxtında qapını sındırmağa çalışsalar da, buna nail ola bilməyiblər. Dərhal polisə xəbər verən qonşular sayəsində bölgəyə çoxlu sayda polis və ilk yardım qrupu göndərilib. Hadisə yerinə gələn qruplar gözlərinə inana bilməyib və gənc qadın nəzarətə götürülüb.

Polisdən verilən açıqlamada qadının əvvəlcə qızını öldürdüyü, daha sonra isə bıçaqla özünə xəsarət yetirdiyi bildirilib. Hadisənin ən vəhşi tərəfi qadının öldürdüyü qızının ciyərini yeməsi olub.

Hadisənin şahidi Keniyada gündəlik nəşr olunan "The Standard" qəzetinə bildirib ki, onlar ananın "Bir daha heç vaxt ağlamayacaqsan, balam... əbədi yatacaqsan" mahnısını eşidiblər.

Şahidlərdən biri qadının qızını öldürdükdən sonra uşağının qaraciyərini yediyini gördüyünü deyib. Gənc qızın parçalanmış cəsədi yarılmaq üçün Kitengela xəstəxanasının meyitxanasına aparılıb. Səlahiyyətlilər əlavə edib ki, qadının psixi sağlamlıq problemləri olub-olmadığı araşdırılır.

**Turan**